Fərid Hüseyn

# 300-dən sonrakı azərbaycanlılar

(esselər və şeirlər)


300
- dən
sonrakı
azərbaycanlılar
fərid hüseyn

**www.kitabxana.net**
**Milli Virtual Kitabxananın təqdimatında**

# Fərid Hüseyn

# 300-dən sonrakı azərbaycanlılar

## (esselər və şeirlər)

YYSQ - Milli Virtual Kitabxananın
e-nəşri N 11 (2012)

Virtual Redaktoru və e-nəşrə hazırlayanı:

Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana

Bakı – 2012

“300-dən sonrakı azərbaycanlılar” kitabını yazmaq Kamal Abdullanın “300 azərbaycanlı” esselər kitabını oxuyandan sonra ağlıma gəldi. Bəzən insan elə kitabla qarşılaşır ki, oxuya-oxuya kədərlənir. Səbəb bu qədər sadədir: səhifələrin sona çatmasını istəmirsən. Belə kitablardan biri də “300 azərbaycanlı” idi. Ürəyimə bir istək doldu: bu kitabın “ardını” yazmaq. Yalnız bu yolla “300-azərbaycanlı” kitabı sona çatmaya bilərdi...

Kitabı ancaq esselər kitabı kimi nəzərdə tutmuşdum. Dostlarımın və istəkli həmkarlarımın, bəzi müəllimlərimin təkidi və xahişi ilə şeirlərimi də əlavə etdim.

Hazırda ölkəmizdə hər gün kitablar çap olunur, təqdimatlar keçirilir. Bir müddət sonra bütün “ədəbi tüstülər” ədəbi mühitdən sovrulub gedir. Mən də daxil olmaqla demək olar ki, bütün yazarlar sadəcə öz içimizdə vurnuxuruq. Dünyanın qapıları bizim üzümüzə “taybatay bağlıdır”. Bu kitabı çap etdirməyimin səbəbi isə sadəcə bir pünhan istəkdən irəli gəlir. Hamının hər şeyə biganələşdiyi bir dövrdə kitabı oxuculara təqdim edərkən Don Migel Unamunonun fikrini xatırlamaya bilmirəm: “Bu gün mən növbəti kitabımı insan laqeydliyinin ixtiyarına buraxıram”.

Nəysə, kitaba xoş gəlmisiniz...

Bu kitabı müəllimlərimə ithaf edirəm...

# Esselər

## 301. QADINLAR VƏ KİŞİLƏR

Kişi doyduğuna görə qadınından,
qadınsa doymadığına görə kişisindən bezir.
**YILMAZ ERDOĞAN**

I

Qadın və kişi ayrılarkən uşaq ortada qalsa, kişi düşünəcək: – "Anasından artıq olmayacaq ki, cəhənnəm olsun!". Qadınsa öz ürəyində: – "O əclafdan ötrü niyə balamı atmalıyam?!" Və qayıdıb uşağını götürəcək. Uşaq Şərq qadınınının "iradəsizliyidir".

II

Qız gələcəyini üzünə açılan sabahlarda yox, arzuladığı analığında görür. Oğlan o zaman qıza tam sahib olur ki, "səninlə evlənəcəm, uşaqlarımız olacaq" deyir. Qarşıdakı günləri analıq hissi kimi dərk etmək bəlkə də "sığortalı gələcək" vəd edir. Halbuki gələcək – illərdədi, zamandadı. Gələcək analıq hissi kimi qavrananda "idrakı süqut"a aparıb çıxarır. Gələcək analıq duyğusunun fövqündə olduğuna görə, qızlar analıq hissinə qapılıb öz gələcəklərini bu hissə qurban verərək aldanırlar. Şərq qadınının əsas arzusu uşaqdır. Şərq qadınının əri ölübsə, uşaqları varsa o xoşbəxt sayılır. Qadın ərini uşaqlara görə sevməyib, amma uşaqlara görə ərindən imtina edər.

III

Şərqdə qadın alveri iki səbəbdən çoxalır. 1. Şərq kişisi qapalı çevrədəki qadınların qeydinə qalır, daha "kəndin namusu", "məhəllənin qeyrəti", "şəhərimizin adı" psixologiyası yekunlaşıb.

2. Analıq hissinə aldanan qadınlar fahişə kimi cəmiyyətdə az-çox qəbul olunurlar. Şərqdə fahişəliyi qadınlara uşağa görə bağışlayırlar. Qadın öz övladına görə o yoldadırsa, vicdan məcburi olaraq ikinci plana keçirilir. Çünki uşaq birinci plandadır.

IV

Dostoyevskinin "Ölülər evində xatirələr" əsərində belə bir yer var: "Bir gecə məhkumlardan birini qapıya çağırmışdılar. Həbsə düşməmişdən əvvəl hal-əhvalı öz yerində bir Sibir kəndlisi olan bu adam, altı ay əvvəl əvvəlki arvadının təzədən evləndiyi xəbərini almışdı, dərd-qəm içindəydi. O gecə qadın həbsxanaya gəlmiş, görüş istəyib, ona sədəqə vermişdi. Bir neçə dəqiqə ikisi də göz yaşları içində danışmış, sonra bir daha görüşməmək üzrə ayrılmışdılar". Bəzi qadınlar ərlərinin həbsdən gəlməyini ona görə gözləyə bilmirlər ki, qadın üçün gələcək üç-beş il deməkdir. Qadın gələcəyi o vaxt seçir ki, o indiki zamana əmindir. Qadının bugünkü halı pisdirsə o, gələcəyə inanmayacaq. Amma kişinin indisi pis olanda belə gələcəyə inana bilir. Statistikaya görə 6-7 il həbs cəzası almış qadının ürəyi, 15-20 il cəza çəkən kişidən tez partlayır. Çünki qadın üçün bu gün gələcəyə təməl olmalıdır. Kişi üçünsə hər gələcəyin öz təməli var. "Ölülər evində xatirələr" əsərində kişilərin ümidi ilə bağlı maraqlı bir məqam: "Məhkumlar çox xəyalpərəst insanlardır. İyirmi il həbs edilmiş kişilərin mənə son dərəcə sakit şəkildə, "Vaxtım qurtarıb çölə çıxanda..." dediklərini söyləsəm, inanarsınızmı?"

V

Kişi sevgisinin sonuncu mənzili yataqdır. Bu sevgisi ya yataqdaca bitir, ya da ülvi eşq misalıdırsa əvvəlki halına - ilkinliyinə qayıdır, kəsəsi, yatağı aşa bilmir. Bəzən yaxşı cinsi münasibəti bəzi kişilər qadın fədakarlığı kimi qiymətləndirirlər.

Qadının istəyi isə yataqdan sonra da davam edir. Kişi yataqdan qalxandan sonra süstləşir, qadınsa daha gümrah olur. Kişi 5-7 saniyəlik ləzzətlə "an"ı dəyərləndirir, bu qısa zaman kəsiyindəki "an ləzzəti"nə görə sonra özünə nifrət edir. Qadındasa həmin proses uzun müddətli olduğundan qadın yataqda anı deyil, zamanı dəyərləndirir. Qadın yataq münasibətində zamanın içindən zamana çıxır, kişi isə bir andan, böyük bir zamana qovuşur. Kişi seksi daha fanidir. Ona görə də qadınlar ancaq yataqda kişilərdən ağıllı olurlar.

## 302. ULE, ATANI EŞİDİRSƏN?

Günlərin sinəsi  ağrıların, kədərlərin üzünə saatbasaat açılır. Günlərin bu qədər amansız olması onu yox, bizi utandırır... Uzun ayaqlarına ayları, illəri, fəsilləri geyinmiş zamansa elə hey axır... Zamanın nə mənbəyi var, nə də mənsəbi...

Həyat tək ayağı üstə sıldırımın kanarında dayanmağa nə qədər də çox bənzəyir. Sıldırımda səni aşağıdan çağıranın da güdazına gedə bilərsən, arxadan səsləyənin də. Yapışdığından yıxılanda, insanlara güvənin itir. Sonra çarəsizlikdən oturduğun budağı da sevə-sevə kəsirsən. Darıxma, sənə ad da tapılar: – Molla Nəsrəddin...

İllər insanı incidir və keçmişə olan sevgimi buza döndərir. Gündəlik qayğılardan dolayı ətrafdakı adamlara diqqətim günbəgün azalır. Məsələn, hər dəfə evimizə gedəndə atamı görmürəm. Atasızlığa, səhər əl-üzümü yumaq qədər vərdiş eləmişəm. Anamın həyatımdakı rolu artdıqca məni daha çox o düşündürür. Atamı unuda-unuda anamı sevdikcə, elə hiss edirəm ki, elə bil bu adda birisi olmayıb. Hələ nə düşündüyümə fikir verin: bəlkə mən də İsa peyğəmbər kimi Allahın oğluyam?!

Başqasından danışaq. Məsələn, şair Qulu Ağsəsdən...

Qulu Ağsəsin "Hər yer sənsən" şeirlər kitabındakı tərcümeyi-halı belədir: "1969-cu ilin 20 aprel günü Ağsəs Cəfərqulu oğlunun əcəl elçisi kimi bu dünyaya təşrif buyurdum.

Kişi məni ixtiyar yaşında dünyaya gətirdiyinə görə hakimi-mütləqin qəzəbinə tuş gəldi və qara-qırmızı vərəqəylə oyundan uzaqlaşdırıldı, odur ki, özümü yaşamağa deyil, boşluğu doldurmağa məhkum olunmuşlardan sayıram”... Qulunun ağrılı sözlərinə nəzər salanda, insan onun eynəklərinin altındakı uşaqlıqdan marka kimi topladığı kədərin mənasını daha aydın dərk edir. Bronjilet bizi ölümdən yox, güllədən qoruyur... Bəlkə ölüm də, ataları dünyadan qoruyub! Deyirlər, əvvəllər dünya bu qədər çirkli olmayıb, Qulu...

Quludan da iki yaşlı Mətinə keçək...

Mərhum şair dostum Fərhad Metenin Mətin adında oğlu var. İki yaşlı uşağın dediyi ilk söz “dədə”dir. Amma bu sözü o, bacısına deyir. Sanki ata boşluğunu doldurmağa çalışır Mətin... M.Şoloxovun “İnsanın taleyi” hekayəsindəki kimi insan axtardığını tapmayanda həmdərdi ilə ovunmalı olur. Bəzən insanlar şüşəsi qırıq pəncərəyə əski tıxamaqla soyuqdan qorunurlar. Həyatdakı boşluqlar, sınıqlar da bax beləcə daha çox nəzərə çarpır. Amma bəzən pəncərə şüşəsinin qırıqları ayağa yox, ürəyə batır. Boşluğu doldurmaq, həm də yoxluğu təkrarlamaqdı...

...həyatdan filimə adlayaq.

Məşhur türk rejissoru Çağan İrmağın “Atam və oğlum” filmində belə bir səhnə var: Sadiq adlı ata xəstəxanada son günlərini keçirəndə 6 yaşlı oğlu Dəniz onu bu vəziyyətdə görür. Xəstə Sadiqin atası yaşlı Hüseyn kişi oğlunun yanına gəlir və təsəlli üçün deyir: “Sən demisən ki, “kaş, Dəniz məni yataqda görməyəydi, həmişə belə xatırlayacaq”, bundan qorxma, övladlar atalarını həmişə xatırlamaq istədikləri kimi xatırlayarlar”.

Sadiq öləndən sonra Dənizi inandırırlar ki, kitablardan oxuduğun supermen kimi atan da göyə uçub, nə vaxtsa qayıdacaq. Atasının supermenə çevrildiyinə inanıb taleyi ilə barışan Dəniz, bir gün əlindəki kiçik oyuncaq kamerası ilə çəkiliş apararkən atasını görür. Xəyali olaraq söhbətləşirlər:

– Ata, mən yenə xəyal görürəm?

– Belə olmağı daha yaxşı deyil?

– Yaxşı, onda niyə sən supermen deyilsən?
– Çünki sən artıq böyüyürsən, Dəniz.
– İnsan böyüdükcə xəyalları kiçilir?

Sadiq oğlu Dənizin sualına cavab tapmır? Dənizin kilid sualına, Sadiqin cavabı açar ola bilmir. Susur...

Məncə, bütün erkən ölən atalar, oğulların “niyə tez öldün, ata” sualına cavab verə bilməzlər. Bəlkə, atalar bu suallara cavab verə bilməyəcəklərindən çəkindiklərinə görə, az-az girirlər oğulların yuxusuna? Bilmirəm...

Haradansa bir səs gəlir. Eşidirəm. Bu səs gələndə, bütün səslər ayağını çəkir dünyadan.  Yad deyil, amma bir qədər uzaqdan gəlir. Bu Adam Kukhofun səsidir. 1942-ci ildə müqavimət hərəkatının iştirakçısı kimi tutulub, bir il sonra faşist məhkəməsi tərəfindən ölüm hökmünə məhkum edilən bu alman şairi yenə də 5 avqust 1943-cü il edam olunmamışdan az əvvəl yazdığı “Oğlum Uleyə” şeirini oxuyur.

Əziz oğlum, ey mənim həyatım, məhəbbətim,
Düşünmə ki, mən səni qoyub gedirəm yetim.
Bizim xalqımız, yox, yox, bütün insanlıq, yəqin.
Bundan sonra sevimli atan olacaq sənin.

Söz Adam Kukhofa verilib. Diqqətlə qulaq asın, indi o bütün erkən ölən ataların adından çıxış eləyir.

... Ule, eşidirsənmi?

Biz də eşidirik...

## 303. HEMENQUEY NƏ İSTƏYİRDİ?

**Qılman İmanlıya**

E.Heminqueyin “Qoca və dəniz” povestində gündəlik yaşam mübarizəsindən danışılır. Qoca balığı tutur, amma günlərlə əziyyətdən sonra sahilə salamat gətirib çıxar bilmir. Qoca nəhayətdə görür ki, dənizdə tufan qoparan nəhəng balıq sahilə

skelet gəlib çıxıb. Nəticə: Qocanın əziyyəti bada gedib. Bütün insanların əzab-əziyyəti nə vaxsa hədər gedir, insan götürdüyünü hardasa yerə qoymalı olur. Yerə qoymağın səbəbi hərəkət kimi yorulmaq, ömür kimi qocalmaqdı. Həmin əsərdə fərz edək ki, dəniz bu dünya, sahilsə axirətdir. Bu iki dünya Heminqueyin dünyası idi, həm də. Bu dünyadan axirət dünyasına nəsə aparmaq mümkünsüz olduğu kimi, qoca da dənizdən sahilə heç nə çıxara bilmədi. Bəlkə Heminqueyi intihara aparan elə dünyadan heç nə apara bilməyəcəyinin qorxusu idi? Bəlkə, həmin qoca Heminqueyin özü idi? Həmin qoca balığı aparmaq istəyirdi, əli boş, üzü qara getmək istəmirdi. Əgər O QOCA – Hemenquey, dəniz bu dünya, sahil axirət idisə, bəs o BALIQ nə idi? Hemenquey balığı nişan verərək dünyadan nə aparmaq istəyirdi?

## 304. HƏVVA ALMAYA GÖRƏ QOVULMAYIB

İnsanlar təkcə tamahkar olduqlarına görə cənnətdən qovulmayıblar. Çünki Allah bağışlayandır, rəhimlidir. O belə xırda şeylərə görə insanı Cənnətdən qovmazdı. Allah insanları cənnətdən ona görə qovdu ki, insanlar SÖZƏ xəyanət etdilər. Təsadüfi deyildi ki, dünyadan əvvəl söz yaranmışdı və Allah aləmi insanlara sözlə açıqlamışdı. Bütün dini kitablar sözdən ibarətdi. O Adəmdən sonra da Sözə Xəyanət etmədi, dini kitabları yaratdı adəmin övladları üçün. Allahın Adəm və Həvvaya tapşırığı SÖZ idi. Onlar almaya – qadağaya yox, Allahın SÖZünə, tapşırığına xəyanət etdilər. Allahsa sözə xəyanət edənləri bağışlamır.

## 305. ÖZ HALAL QİYMƏTİNİ ALA BİLMƏYƏNLƏRƏ

“O olmasın bu olsun” filmində Məşədi İbaddan Həsənqulu 500 manat, qəzetçi Rza bəy və Qoçu Əsgər isə müəyyən məbləğdə pul alırlar. Hamı haqqı olmayanı istəyir, hətta ziyalılar

da. Məşədi İbad da qorxaq və cahil olduğundan hər istəyənə pul verir. Amma bircə hambal öz haqqını – bircə abbasını istəyir:

– Məşədi hamıya pul verirsən, mənim də bir abbasımı ver, sovuşum gedim da.

Bu sözdən sonra Məşədi İbad hambalın təpəsinə bir qapaz ilişdirir. Bütün bu adamların, hətta dövrün ziyalılarının, mirzələrinin belə içində yalnız hambalın tamahı yoxdur, o ancaq öz haqını istəyir, əfsus ki, ala bilmir. Varlıların qədim xisləti burda da üzə çıxır: Məşədi İbad 500 manatı göz qırpmadan Həsənquluya öz avamlığı ucbatından verir, amma hambalın 1 abbasını verməyə can çəkir.

## 306. TƏK TƏRƏFLİ DİALOQLAR

Monoloq da dialoqdu, ürəklə dilin dialoqu. Monoloq içindəki çək-çevirin dialoqudu. Əgər ürəyimizdən də dilimizdəki kimi səs çıxsaydı, onda bizim yalnız dialoqumuz olardı. Monoloq dildir, dialoq dillər.

Susmaq dialoqu monoloqa çevirməkdir, ürəyi dildən ayırmaqdır. Bəs dialoqu monoloqa çevirən situasiyalar hansılardır? 6 müasir türk filmindəki diloqların monoloqa çevrilmə prosesinə aşağıdakı tezisləri açar edərək baxaq.

1. Sualsız cümləyə cavab veriləndə. Yəni mütləqlik mövcuddursa.
2. Qoyulan sual ünsiyyətə və mentalitetə ziddirsə, ağılsızlıq kimi qavranılırsa.
3. Verilmiş suala hadisə örnək, arqument kimi göstərilirsə.
4. Əyani sübut situasiyanı tamamlayırsa.
5. Situasiyanın özü sonluğu doğursa, yəni situasiya sonluqdursa dialoq hökmən "ölməlidir".
6. Qoyulan sual ritorikdirsə.

İndi yuxarıda sadalanan 1,2,3,4,5,6 tezislərinə aşağıdakı 1,2,3,4,5,6 film situasiyalarını düzün...

**1. "Mənim, Rozun Sonbaharı" filmi**

Əri türmədə olan bir qadın başqa bir kişiylə yaşayır. Ara-sıra görüşürlər. Yataqda belə bir söhbət baş tutur.

- Narahat olma, mən sənə baxaram. Elə fikrin-zikrin o ağılsız ərindədir.

Qadın cavab verir:

Bura bax, bəlkə də artıq fahişəyəm, amma heç vaxt vəfasız olmaram.

Mütləqlik... Sözlər susur...

**2. “Adını Sən Qoy” filmi**

Ilqaz həyatdan küskündü. Xəstə qardaşısa onun həyatını rəngləndirməyə səy göstərir, əfsus ki, hədər yerə. Çünki Ilqaz yaşamamağı yaşamağa qərarlıdı. Xəstə qardaş dillənir:

- Hərdən beynimdə olanlar o qədər ağrı verir ki, öz-özümə deyirəm: kəs tulla bu başı, amma mən bu halımla belə həyatla əlaqədəyəm. Məsələn, bu həftə xəstəxanaya təzə bir tibb bacısı gəldi, tatar gözəli... Hələlik ona yazıram. Yaxşı, bəs sən neyləyirsən? Deyim neyləyirsən? Heç bir zibil qaynatmırsan, heç nə eləmirsən? Gizlənmisən qabığının içində, yaşamaqdan qorxursan.

Ilqaz dillənir:

– Neyləyəydim ki, sənin kimi edəydim?

Qardaşı Ilqaza şillə vurur, Ilqazsa heç bir reaksiya vermir.

– Oğlum, sən yaşamırsan ki, intihar eləyəsən, axmaq. Bax, hətta dava da eləmirsən mənimlə, mən sənin həyatdakı yeganə qohumun deyiləmmi, mənimlə dava eləməyib kimlə dava eləyəcəksən?

Çünki qohumla, qardaşla davaşmaq ünsiyyətə, mentalitetə ziddir. Ünsiyyət və mentalitetə zidd olan hallar müzakirə edilmir.

**3. “Kədər” filmi**

Nəvə soruşur:

– Nənəmlə necə tanış oldun?

Baba cavab verir:

– Əsgərlikdən qayıdanda aşağı kəndin tarlasında gördüm Qumrunu. Çox bəyəndim. Gedib sən kimin qızısan dedim. O da

Heydərin, dedi. Baxdım ki, ağıllı, çalışqan, Allahyana desəm gözəldi. Qanım qaynadı. Ona dedim ki, əsgərliyimi qurtardım, evlənəcəm. "Mənə nə aidiyyatı var?", dedi. Mən də səni alacam, dedim. O "olmaz" dedi. Mən "olar" dedim. O "niyə olar?" dedi. Dedim ki, çünki sən "bəlanı buldun". Güldü. Güləndə ürəyim dedim ki, bu iş oldu. Bizimkiləri istəməyə göndərdim. Getdilər istəməyə, atası da Qumrunu çox istəyərmiş. Arvadını qızı nə fikirləşir deyə göndərib. O da (yəni Qumru) deyib: Gedin ona deyin ki, o da "bəlasını buldu". Evləndik, bax, hamısı bu qədər.

Verilən suala hadisə yetkin bir cavabdır.

## 4. "Vizontele" filmi

Rıfat sevgilisi Asiyəni görməyə gedir, çünki bir-iki saat sonra əsgərliyə yollanacaq. Asiyə ilə görüşür və qıza deyir ki, məni gözlə. Və Asiyəyə boyunundan asmaq üçün dua şəklində bükülü verir. Asiyə soruşur:

– Bu nədi?

– İçində yaramın qabığı var?

– Yaranın qabığımı?

– Hə. Sənnən ilk görüşdüyümüz gün yıxılmışdım e, qanamışdı, sonra yara qurudu mən də qabığını saxladım. İkimizin yarasıdı deyə. Əslində çox gülüncdü, hə? Amma olsun. Düşündüm ki, şəkil verməkdən yaxşıdı. Şəkil baxa-baxa vərdiş eləyərsən. Yara elə deyil, nə vaxt baxsan ağrıyarsan...

Göstərilən görülür, əyani sübut var, deməli. Romantik sükut...

## 5. "Kimsəsiz Adam" filmi

Ayperdən Ada ayrılanda aralarında belə bir söhbət olur.

Həyatımdakı ən gözəl varlıqlardan biriydin, bunu unutma. Əgər bu bir az da olsa kömək olacaqsa.

Sagol, çox köməyi oldu. Son sözümü deyəcəm və gedəcəm: Qarda donmaq üzrəsən, yatmaq ləzzət eləyir, amma sən öldüyünün fərqində belə deyilsən.

Bu situasiya sonluqdur. Sondan sonrakı son da elə sondur. Ona görə də heç kəs sonu danışa bilmir.

**6. “Atam və Oğlum” filmi**

Sadiq öləndən sonra oğlu Dənizə inadırırlar ki, kitablardan oxuduğun supermen kimi atan da göyə uçub, nə vaxtsa qayıdacaq. Atasının supermenə çevrildiyinə inanaraq taleyi ilə barışan Dəniz, bir gün əlindəki kiçik oyuncaq kamerası ilə çəkiliş apararkən xəyalən atasını görür. Xəyali olaraq söhbətləşirlər:

– Ata, mən yenə xəyal görürəm?

– Belə olmağı daha yaxşı deyil?

– Yaxşı, onda niyə sən supermen deyilsən?

– Çünki sən artıq böyüyürsən, Dəniz.

– İnsan böyüdükcə xəyalları kiçilir?

Bu ritorik suala cavab verməyə kiminsə gücü çatarmı? Ağlım kəsmir...

## 307. İNSANLAR İNSANLARA İNANMADILAR

Bilirəm, siz də kimlərəsə inanmırsınız. Amma kimlərsə sizə neyləyiblər axı? Qurunun oduna yaş yanır yavaş-yavaş...

Bu inamın itkisi indinin işi deyil. Babalardan bizə yadigardır! Məsələn: İnsanlar qırıq-qırıq səslərə inanmadılar, sözlər yarandı…

İnsanlar radioya inanmadılar, eşitdikləri səsin sahibini görmək istədilər. Televizor yarandı. Və bütün bunlar hər şeyin vizuallaşmasına gətirib çıxardı.

İnsanlar telefona inanmadılar, az istifadə olunsa da, vizual funksiyalara malik telefonlar yarandı.

Əvvəllər gəlinlər toyxanalara gətirilməzdi, artıq gəlinlər toylarını öz kürsülərində izləyirlər. “Gəlinlər” də artıq görünürlər. Vizuallıq dünya “qağa”nı bürüdü. Daha əllərini heç kəs arxasında gizləmir. Heç buna ehtiyac da yoxdur...

...insanlar insanlara inanmadılar. İnsanlar insanların işini yarıtmadılar. Robotlar yarandı.

İnsanlar vaxtlarını düzgün bölə bilmədilər, hərdən ulduzlar, hərdən günəş adamları aldatdı. Ulduzla, günəşlə vaxtı müəyyən

edə bilmədilər, saat yarandı. Sonralar insanlar günəşə, ulduza da inanmadılar.

İnsanlar gözlərinə inamadılar, gözlər də insanları aldatdı və nəticədə eynəklərimiz yarandı.

İnsanlar inanmadılar ki, torpaq xəzinədir. Və onu qazıb qızıl çıxardılar, boyunlarına asdılar, barmaqlarına taxdılar. Qorxdular ki, yerdə qalsa o da çürüyüb məhv olar...

İnsanlar göylərə inanmadılar. Uçub gedib planetləri tapdılar. Amma sonra məyus olaraq yerə qayıtdılar. Tapdıqları şeylər işlərinə yaramadı.

İnsanlar İsaya inanmadılar, çarmıxa çəkdilər. İnsanlar ancaq Allaha inandılar, amma düşünmədilər ki, Allah da öz lütflərini İsa kimi bəndələri vasitəsi ilə insanlara ötürür. İndi isə onun, İsanın nə vaxtsa gələcəyinə inanırlar.

Milyon illik bir bəlaya – EŞQƏ inanmadılar insanlar. İnsanlar Qeysə inandılar, amma ondan daha çox sevən Məcnuna inanmadılar, dəli dedilər...

İnsanlar Allaha sözlə qovuşdular, sözlə müraciət etdilər, amma sözə inanmadılar, sözə gəlmədilər. Nəticədə müqavilələr yox, müharibələr oldu...

İnsanlar insanlara inanmadılar və sığorta şirkətləri yarandı...

İnsanlar Allaha inandılar, amma səhər duran kimi yuxularını da yozmağı unutmadılar.

İnsanlar alın yazılarına inanmadılar və falçılar yarandı.

İnsanlar ayaqqabılarına görə ayaq ala bilmədilər. İnsanları ayaqları apardı, amma beyinləri əmr edən yerə. Allah ona görə ayağı aşağıda yerləşdirib. Ayaq həmişə başın quludu. Ona görə yazıq ayağa inanan yoxdu... Amma bizi inandığımız yerə ayaqlarımız aparır.

Atalar çox şey dedilər, hətta, bir kitablıq. Amma övladlar öz bildiklərini etdilər. Oğullar atalarına inanmadılar. Təəssüf...

Qoy yadımdaykən bunu da deyim: Atalar sözləri kitabı təkcə kitab deyil. O, həm də babalarımızın etdiyi səhvlərin nəticələridi.

İnsanlar insanlara hələ də inanmırlar. Bir ömür boyda təəssüf...

İnsanların başlarına düşən daş, yarımçıq qalmış evlərinə yarımadı. Ona görə başımıza düşən daşlara inanmadıq, amma baş daşlarına yaman inandıq...

Yalanlar televizordan gözümüzə, radiodan qulağımıza, havadan burnumuza girdi. Amma biz yenə evi yanan çobanın evinə tərəf öz parçımızda su daşıyırıq. Biz yalanlara yaman inanırıq.

Hə dostlarım, Heminquey çalmayacaq "Əcəl zəngi"ni, əcəl zəngini Əzrail çalacaq. Ona görə də bir-birimizi sevək, bir-birimizi aldatmayaq! Atamızın adını oğlumuza qoymaqla biz öz varlığımızın müddətini uzada bilmərik. Biz öz varlığımızın, mövcudluğumuzun müddətini bir-birimizə inanaraq, bir-birimizi aldatmayaraq artıra bilərik...

## 308. NECƏSƏN NİTSŞE?

Hər şey əzabdanmı yoğrulub Nitsşe?

Əzab insanların iç üzünü açır. İnsanın çöl üzü onsuz da, taybatay açıqdı.

Həyat qanunlarının tərkibində daim bu əcaib dialektika olmalıdırmı? Ramiz Rövşənin sözü olmasın "Özünə qayıdır, hər şey özünə".

Hərdən düşünürəm ki, ən müqəddəs rəqəm ikidir. Bir ruh+bir bədən, bir sən+bir mən, bir ata+bir ana, bir sağ+bir sol, bir əvvəl+bir son bərabərdi iki...

Bir rəqəmi də gözəldir: bir ata, bir ana, bir ölüm, bir doğuluş. Birin müqəddəsliyini pozan bir şey var, o da sən, yəni özün. Çünki bir daxilində sənin təkliyin yoxdur, sən həmişə özünləsən, yəni bir+bir=iki. İnsan tək qalmır, özü-özüylə qalır. Ona görə də digər şəxslərə sən yox, o sözüylə müraciət edirsən. Ətrafındakılar hamısı "O" dur.

Yeddi rəng var deyə yeddini müqəddəs saymayın, çalışın sizin də öz müqəddəsləriniz olsun.

Dünya bir qədər çevrəyə bənzəyir, burada əvvəl həm də son deməkdir. Burada öndəkilər bəzən sonda da ola bilərlər. Xətt kimi daha çox perpendikulyardı dünya, burada bərabərlik, yəni paralellər ola bilməz, çünki, pul var. O da kağızlara parçalayıb bərabərliyi.

Avtobus dayanacağında fikrə dalıb gözləyən qız avtobusu gözləmir, sadəcə avtobus hər gün gəlib onu işə, getmək istəmədiyi yerə aparır. Onu fikirləşdiyi yerə bircə fikri apara bilər, fikrinsə dayanacağını tapa bilmir. Fikir əlverişli nəqliyyat deyil, heç kimi mənzil başına çatdıra bilmir.

Rayonumuz çox isti olur Nitsşe, saat 12:00-dan axşamüstü 18:00-dək canını sevənlər küçəyə çıxmırlar, dincəlirlər. Hə, bizlərdə yayda beləcə dincəlir kasıb qadınlar və kişilər. Başında zənbil daşıyan xalanın beynində zənbilin izi qalır, qarnındasa heç nə. Deməli, bütün əziyyətlərin sonu heçdir.

Qeybdən gələn səsim: Necəsən Nitsşe, həyat dözülməzdir?

Nitsşe: “Deyirsiniz “həyat dözülməzdir”. Onda sizin gündüzkü qürurunuz, axşamkı itaətiniz nəyə gərəkdir?”

Qeybdən gələn səsim: Heç nəyə!

Bağışla Nitsşe, sualına geniş cavab verə bilmirəm, çünki burda cavabı ancaq “atalar” verə bilərlər. Atalarsa üçdən deyib. İş tapmayan dostlarım evdə ona görə iki söz də deyə bilmirlər.

Ata: İş tapdın, oğul?

Oğul: Yox...

Axtalanmış qoyun ətinin bəlasına keçir, insan dilinin. Deməli, Allah bəlaları bədənimizə yerləşdirib.

Qeybdən gələn səsim : Nitsşe, bizim axrımız necə olacaq?

Nitsşe: “ Rastlaşacağınız ən qarı düşmən həmişə sən özün olacaqsan. Keçdiyin meşələrdən hər dəlmə-deşikdə özün öz pusquna düşəcəksən”.

Nitsşe, özünü öldürən adam, deməli, özündən öz günahlarının qisasını alır, görəsən biz bu qədər ağrılara hələ nə qədər dözəcəyik, Nitsşe?

“Həyat dözülməzdir, özünüzü nərmə-nazik göstərməyin! Biz hamımız qəşəng yük eşşəkləriyik”.

Qeybdən gələn səsim: Daha sus, Nitsşe! Burda atalar üçdən deyib. Sən də üç dəfə danışdın. Artıq söz dəyənək kimi baş yarar.

Bir şah olur sonra həmin şahın yerinə digər padşah gəlir, sonra digəri. Bir gün növbəti şah ölür. Daha heç vaxt şah yaranmır. Bu nağılı nəvələrinizə, balalarınıza danışın. Çünki, bu nağıl heç vaxt olmayıb və heç vaxt olmayacaq. Nağılları bizim tək kasıb bəndələr yazıb, amma hər şey şahların haqqındadır.

Çox istəyərdim ki, yazıçılar toyu günü ayna qarşısında fırlanan qızın keçirdiyi hissləri yazsınlar, amma aynanın dilindən. Qayıqlar haqqında əsər yazılsın, amma dənizin dilindən. Arı pətəyinə çöp soxan uşağın qərəzini bilmək lazımdır.

Üzünü ovcuna qoyub ağlayan qızın dərdi ona görə azalmır ki, göz yaşları yenidən öz bədəninə, əllərinə hopur. Bakıya hamı şeir yazır, amma Bakının yazdığı şeirin əlifbasını bircə bomj bilir. O da oxumaq istəmir alın yazısını.

Hər səhər saat altıda oyanan dostum sevgilisi qədər yuxuya həsrətdi. Yazıçılar bilirsinizmi bomjlar haqqında niyə yaxşı əsər yaza bilmirlər? Çünki küçədə yatmayıblar! Bomjlar onlarçün Van Qoqun əsərləri kimi anlaşılmazdır. Bomjlar onlarçün portretdir. Şəkilə baxılıb yazılan şeir və əsərlərdə ruh yox, ən yaxşı halda uğurlu təsvir ola bilər.

Buralarda metroda oturmaq üçün xanım olmalısan. Şikəst, yaxud ağ saqqal yox! Bu prinsip digər sahələrə də sirayət edir. Xanım sözünə baxın: XAN-I-M. Yaxşı yerdə oturmaq üçün Xan, sənə yer verilməsi üçün kiminsə Xan-I, yaxud da, kiməsə Xan–IM olmalısan...

Buralardakı təmizliyi, bircə adını bilmədiyim qoca düzgün ifadə eləyir. O da, sözlə yox, hərəkətlə. Hər gün eynəyini tüpürüb silir.

Buralarda hamı evinin mərtəbəsi boydadı. Birincilər daha balacadırlar. Sonuncular ən böyük.

İnsanın taleyi alnına yazılıbsa, falçılar niyə ovcumuza baxırlar, Nitsşe?

– ...

Anası ölmüş qız saçlarını, anası ölmüş oğul cırıq və boş cibindən qıçının tüklərini yolurdu. Həyat ölümün əvvəlidir, ölüm həyatın sonu? Bəs bizim yaşamağımız yaşamaqdımı? Bizim ölümümüzün əvvəli hanı?

Doqquz iqlimi olan ölkədə havam çatmır, desəm yəqin inanmazsınız. Amma bütün inanclara and olsun ki, bəzən belə olur.

Bu şəhərdə şeir yazmayanlar da misra-misra ölür. Biz şairlərsə heca-heca.. Biz şair xalqıq axı.

Bizim yaş dövrlərimiz də şərtidir. Biz uşaq, yeniyetmə, gənc, qoca olmuruq. Biz, pulumuz olanda şən uşaq, olmayanda atılmış qocalar kimi oluruq. Gənclik, yeniyetməlik bizə görə deyil..

Nəisə, Nitsşe. Sən bir qədər bığlarını sığalla, mən saçımı... amma başqalarının əvəzinə.

...oldu.

## 309. İLGƏYİNƏ İLİŞƏN FAHİŞƏ

Fosforlu atılmış qadındı, bütün sevgilər ona yanını çevirib. Gəzərgi həyatı ilə meyxanalarda şüşələrin dibinə qədər varır, dolu qədəhin ağırlığını götürəndə bilir, boşalan qədəhin yüngüllüyünüsə yox. O daşı-torpağı altun İstanbulu sevir. O başqa cür yaşaya bilmir... Tanrı onu fahişə yaradıb. Fosforlu fahişədən başqa heç nə ola bilməzdi, bu mənada o, həyatda yerini tapıb. Fahiş sözü onu həyatında bütün hallarda halanmışdı...

Fahişə
Fahişənin
Fahişəyə
Fahişəni

Fahişədə
Fahişədən

Anası tənhalıq idi, atası da, bacısı da.. Qovulanda qaçırdı, tutulanda da yatıb çıxırdı... Qadınlığını unutmuşdu, hərdən saçlarına baxanda bilirdi ki, qadındı... Amma onun içi kişi ilə dolu olduğuna görə, içindəki qadın özünə yol tapa bilmirdi. Fosforlu xanım kişilikdən əziyyət çəkirdi.

Yağış vuranda saçları par-par parıldayırdı, harda gizlənsəydi, saçının fosforundan, parıltısından tapırdı polislər onu. Fosforu – saçları bəlasıydı onun. Saçları onu ələ verirdi...

Fosforlu bəzənib-düzənən olmasa da, amma gözəldi. Fahişə idi, amma səmimi, fahişə... Birinci dəfə bədənümmanı polis idarəsində görmüşdü. Qadın üçün bundan böyük bədbəxtlik ola bilərmi? Allah kimi yurdsuz idi...

Cevriyyə elə bilirdi ki, Allah onu unudub, amma Allah onun halını görüb ağlayırdı.

Fosforlu sonuncu qəpiyini də xərcləyə bilərdi, uf da eləməzdi. Fosforlu qarşılıqsız sevirdi, ona biganə olan bir adamı sevirdi. Fosforlu qadın kimi, kişi kimi yox, insan kimi sevirdi. Təmənnasız...

Mən yazıq, yanına dönəmi billəm?
Mənə rəhmin gəlsin ağlımı alma!
Hərədən xatırlayıb ağlayıb gülləm,
Sən isə heç məni yadına salma.

Ağlını əlindən almışdılar, könlünün quşu uçmuşdu, saqqızını oğurlamışdı Cevriyəciyəz. O türmə ilə azadlıq arasında ömür edirdi. Həmişə başqasının üstündə tutular, amma heç vaxt heç kəsi ələ verməzdi. Onun içindəki kişilər, içindəki qadını danışmağa qoymazdılar. Dişi bağırsağını kəsə-kəsə yaşayardı...

Qadınlığını o dərəcədə unutmuşdu ki, sevdiyinin evinə gedib onun yanında qalırdı. Nazik ədyalla, quru yerdə, çirkli döşəmədə yatmağa razı idi. Təki onun yanında olsun...

Kaş ki, qucağımda sənin uşağın
Dilənib beş şahı pul qazanaydım.

Cevriyə gündən-günə daha da özündən çıxırdı: “Günlər keçdikcə Cevriyyə hiss edirdi ki, ürəyində əvvəllər Allah üçün ayırdığı yeri, sevdiyi adam tutmağa başlayır”.

Cevriyyə fahişə idi e... Bu məlum. Amma bu dəfə sevginin fahişəliyi ilə rastlaşmışdı. Qorxduğu başına gəlmişdi: “Cevriyyə çalışırdı ki, bir kişi ilə bir dəfədən artıq yatmasın, çünki öz çoxillik təcrübəsindən bilirdi ki, adamlar tez-tez görüşəndə bir-birinə isnişirlər”. Cevriyyə hər şeyi geridə qoyub onun yanına gəlmişdi. Hər şeyə hazır idi. Bu günə qədər növbəti naharında içəcəyi şərabı düşünən Cevriyyə hər şeylə razı idi. Şərabsız, meysiz, məzəsiz yaşamağa... Cevriyyə isnişmişdi ona...

Varımı-yoxumu ilkinliyimi...
Sənə qurban verib... deyib gəlmişəm.
Onunçün dilənçi cır-cındırını,
Gəlin paltarı tək geyib gəlmişəm.

Cevriyyənin istəklisi gizlənirdi, çünki o, ölüm hökmünə məhkum edilmişdi. Tutulsaydı edam ediləcəkdi. Tutulur lakin ölümdən yaxa qurtara bilir. O həbsdə olarkən “Cevriyə biləklərinə qandal şəkilini ona görə həkk etdirmişdi ki, ona baxanda sevdiyi adam qandallarını xatırlasın və onunla birgə əzab çəksin”.

Sənin qabırğandan yaranıb, səni
De görüm mən necə sevməyə billəm?

Cevriyyə sevdiyi adamı İstanbul qədər sevirdi, İstanbulusa Allah qədər. Onun yolunda ölümə də getməyə razı idi... Lazım olsa İstanbuldan da gedərdi. Təki...

Sənin günahının cavabınısa
Allahın önündə özüm verərəm.

Cevriyyənin sevdiyi adam ölümə məhkum edilmişdi. Ona görə də gizlənirdi. Amma həbsdə kim olduğunu bilmirlər deyə, ölüm cəzası da unudulur və ona başqa cəza kəsməli olurlar. Cevriyyə onun evinə gəlib dəlil-sübut sayıla biləcək bütün materialları aparıb dənizə atır ki, sevdiyi adamın evini axtarsalar kim olduğunu bilməsinlər. Cevriyə çantaları tələsik dənizə atanda çantanın ipi onun düyməsinin ilgəyinə ilişir və Cevriyyə çantayla birlikdə dənizin dibinə batır...

Həmin gecə dənizin özü fosforlu idi, amma hamı elə bilirdi ki, dənizi par-par parıldadan ay işığıdı...

Fosforlunu öləndə belə saçları ələ verirdi...

**P.S.** Anna Axmatova rus poeziyasının xanım-xatın şairəsi, Fosforlu Cevriyyə isə Türkiyənin ən sevimli fahişəsidir. Axmatovanın şeirlərini oxuya-oxuya parellel olaraq Sultan Dərvişin "Fosforlu Cevriyyə" əsərini oxuyurdum və məndə qəribə bir təəssrat oyanırdı: Axmatova bir sıra şeirlərini sanki Fosforlunun həyatına aid yazıb.

## 310. "KİMSƏSİZ ADAM" FİLMİ

QIĞILCIM və qığılcım...

Qığılcım alovun başlanğıcıdır, ondan kiçik olmasına baxmayaraq. Allah bəşəri metafizikliyi, əbədi fəlsəfəni özü qurub. Bütün hadisələri müqayisə və təhlil etmək əslində onun oyununu faş etməkdir... Hər şey ibtidaidən (adidən) Aliyə (mükəmmələ) doğru gedir, bu da Tanrının nəzəriyyəsidir. Min illərdir ki, bəni-adəm ixtiralar edir, alimlər özlərini öyür, bəşər elimin yolu ilə addımlayır. Əslində biz həyatın tapmacalarını tapırıq, özgə heç nə...! Bizim ixtiralarımız Tanrıya onsuz da məlumdur. Bəşəriyyət VII-əsrdən Quranı yaşadır, eramızdan əvvəl şərab yaranıb. Yəni qədimlik hələ o demək deyil ki, sən ALİsən. Alilik inamdan və

imandan doğulur, nəticə etibari ilə yenə insan ürəyi köməyə gəlir? Necə? Bəzi insanların ürəyi bu imana bağlıdır, bəzilərinin isə yox.. Bəziləri ürəyində bu imanı yarada bilmir. İman olmayan ürək qısırdır, qısır isə yaradılışa yaradıcı ola bilmir. Keçək mətləbə, eşqdə qığılcım bəyənməkdir, alovsa sevmək.

Konkret olaraq "İssız adam" filimi barədə danışacağam. Bu filimin adını dilimizə çevirəndə "Kimsəsiz adam", yaxud "Tənha adam" kimi tərcümə olunur. Son illlər Türkiyədə çəkilən "Yumurta" (sükutun, sakitliyin semantikası ilə seçilir bu film), "Son cəllad" (qatı psixoloji ünsürlər ustalıqla verilib), "Viziontele" (tragikomediya kanonları ilə taleləri açıqlayır), "Günəşi gördüm" (sosioloji prizmada cinsi azlıqların problemlərini faş edir), "Dinle Neyden" (mövləvilərin həyat və ideya yolunu bəyan edir), "Başqa səmtin uşaqları" (bütün cəmiyyətdən təcrid olunmuş insanların faciəvi həyatı haqqında) filmləri sənət əsəri kimi ən azından maraqlı və düşündürücü, ən çoxundan isə qlobal aləmə Türkiyə insanının yaşam tərzini, psixologiyasını, kino mədəniyyətini nümayiş etdirir. Vəfalı olaq və qayıdaq əvvəlki mətləbimizə, yəni "Kimsəsiz adam" filminə.

Ayper başqa qadınlarla cinsi əlaqədən həzz alan, qadınlara yalnız bu fikirlə yanaşan, gecələri əyyaşlıq, gündüzləri restoranında işləyən adamdır. Ailəsindən uzaqda, İstanbulda uzun illərdir ki, tək yaşayır. Bütün sevgilər onun gözündə mənasızlaşıb, çünki o yalnız özündən qayğı görür.  O yalnız özünü, tənhalığını sevir, bu həyat onun üçün çox doğmadır. Qadınlar onun üçün sadəcə on dəqiqəlikdir. Hətta anası ilə belə telefonla danışarkən darıxır. O özünə öyrənib, sanki özü-özünə güzgü tutub və ancaq özünü sevir.

Və bir gün çərxi-fələk tərs gəlir. Ada xanımla kitab mağazasında tanış olurlar. Ada da Ayper kimi tək yaşayır, paltar tikib satır, başını uşaq geyimləri tikməklə qatır, uşaqların sevinci ona da yetir. Kitab mağazasından da "ikinci əl kitab" yəni başqasının oxuyub təkrarən dükana satdığı kitablardan birini almaq istəyir, çünki o kitabları başqa insanlar oxuyub, bəzilərinin

əlinin izi, saçı, nömrəsi, qeydləri orda qalıb. Bir sözlə o da tənhalığını doldurmağa çalışır. İlk eşq qığılcımı həmin mağazada başlayır. Ayper qıza evli olduğunu, sonra ayrıldığını deyərək ondan mərhəmət umur, Ada da hər şeyi anlayır. Nəticədə bir küsüb bir barışmaqla aralarında sevgi yaranır.

Aypər həyatında birinci dəfə qız sevir, amma daxilində anlaşılmaz tərəddüdlər başlayır. Çünki o, bu sevgi ilə illərdir müqəddəs saydığı TƏNHALIĞIna xəyanət edir. Onun özü ilə tənhalığının arasına müccərrəd varlıq olan eşq və maddi varlıq olan xanım girir. Nəticədə o adi insanlar kimi yaşamalı olur, qayğıları artır. Sonra anası şəhərə gəlir və filmdəki ən maraqlı situasiya baş verir. O anası və qadını ilə toya gedir və tez də qayıdır, çünki o cəmiyyətin işlərinə qoşula bilməz, o təkliyi sevir. Və kiminləsə münasibət quranda isə bu təkliyə xəyanət etmiş olur. Anasını yenidən doğma şəhərinə yol salan kimi Adanı da qovur. Nəhayət, istədiyinə çatır. Tək qalır. Bütün daxili faciələr bundan sonra başlayır. Nə Adanın yanına qayıda bilir, nə də öz tənhalığına. Çünki onun tənhalığı yoxdur artıq, fikrində onun düşündürən adam – ADA var. Nəticədə o tənhalığına və sevdiyinə xəyanət etmiş olur.

Filmdə ifa olunan mahnılar da tənha insanların sevdiyi həzin mahnılardır. Polifonik musiqilərdən istifadə edilmir, çünki tək adam heç vaxt səs çoxluğunu istəmir. Çünki çox səs sakit adamların səsini boğur və səs kütləviləşməsi yaradır. Səhv eləmirəmsə Ximenesin belə bir fikri var: “Sükut bülbülün səsindən daha gözəldir” çünki bülbülün səsinə qoşula bilmirsən. Sükutu pozmaq səsi pozmaqdan daha asandır və sükut səndən aslı olaraq yaranır. Yəni istədiyin vaxt öz tənhalığının səsini (ürəyində danışdığın səsi) poza bilirsən.

Süfizm insanın Allahda əriməsi məsələsi ilə təriqətin dörd əsas şərtindən keçməyi buyurur. Bu yolu düz gedən müridlər, dindarlar Allaha qovuşurlar. Deməli, insani münasibətlər İLAHİ SEVGİYƏ qovuşur. Mahiyyət nədir? Maddiyyatın puçluğu və ruhun Allahda təcəlla tapması. Çünki ruh Allahda əriyir, insan

yaradanına qovuşur. Niyə daha çox Allahın göydə olduğuna inanırıq. Məncə göylər, ənginliklər insana naməlumdur, eləcə də Allah. İnsan da Allahın göz qabağında, yanında olduğuna inanmır, ən azından inanır ki, Tanrı görünməz yerdədir. Ona görə güman edirlər ki, ruh da ucalaraq Tanrıya qovuşur. Sufi eşqdə hiss etmənin mahiyyəti belədir ki, insan Allaha qovuşur, vahid olur. Bu sırf insanın İlahi eşqinə aiddir. Bəs insanın insana olan eşqində sufilik ola bilərmi? Filmin təxminən birinci saatında Ayper Adanın evində olur və yataq münasibətində Ada insanın insana necə qovuşacağını Aypərə başa salır. Əlini onun əlinə keçirir və deyir:

– Əlini əlimə keçir və heç bir şeyi hiss etmə, sanki özünlə sevişirsən.

Bu yataq səhnəsi insanın insanda əriməsidir və sevginin Ayper kimi kobud adamı necə kübarlaşdırdığını göstərir. Sufi eşqdə Allah görünməyən yerdədir ki, ona qovuşursan. Yerdəki, dünyadakı eşqdə isə kişinin qadında (yaxud əksinə) əriməsidir. Bu fikir həm maddi, (varlıqla, cisminlə) həm də mənəvi kontekstə ərimədkdir. Əgər içindəki eşq böyükdürsə, sən qadına ruhən və mənən qovuşmalısan ki, eşqin Tanrı eşqi kimi böyük olsun. Bu səhnə vərdişkar olduğumuz adi, mənasız erokit səhnə kimi qavranmamalıdır.

Ayperlə ayrılandan uzun illər sonra rastlaşan Ada ona həyatlarının normal keçdiyini, xoşbəxt olduqlarını deyirlər, əslində ikisi də bir-birini aldatdıqların bilirlər, uzaq tanışlar kimi görüşən bu adamlar sonda qeyri-ixtiyari çevrilib qucaqlaşırlar. Sonra Ayper ayrılıb gedir. Ada oturan yerin qarşısından var-gəl edir. Bu kadr kifayət qədər təsirlidir. Belə ki rejissor bəyan etmək istəyir ki, Ayperin nə getməyə yeri var, nə də qayıtmağa. Artıq öz ölüm və olum labrintin içindədi.

## 311. SAATIN TƏRSİNƏ İŞLƏNMƏSİ

Saatsaz Geto saat hazırlayır. Oğlu hərbi xidmətə gedərkən, qadınıyla birgə övladlarını yola salırlar. Bir müddət sonra məktub gəlir. Zərf açmağın nə qədər asan iş olduğunu yəqin bilirsiniz. Amma bəzən sözlər səslənmir: ÖLÜB. Kor saatsaz hazırladığı saatın təqdimatını keçirir. Və yerdən kübar görkəmli bir ədəbsiz qışqırır:

Saat tərsinə işləyir.

Saatsaz Geto sıxdığı dişlərinin arasından bu sözləri çıxarır:

Saatı qəsdən belə düzəltdim ki, bəlkə zaman geri gələr və ölən oğullarımız qayıdar.

Bundan sonra saatsazı heç kəs görmür, ölümdən özgə. Birinci Dünya Müharibəsi qurtarır, ölməyənlər qayıdır, ölənlərsə...

Saat işləyir, keçmiş geri qayıtmır, indi isə öz yerində qalmır.

Müharibənin bitməsi ilə bağlı şəhərdə şənlik keçirilir, evdəsə bir qadın doğum sancısı keçirir. Nəhayət, müharibənin simvolu Benjamin doğulur. Həm də nə az, nə çox səksən beş yaşında. Əlbəttə, müharibənin ən gözəl uşağı bu qədər əcaib olmalıdır. Benjamin salamlaşdığı dünyaya, anası əlvida deyir.

Getonun saatını çoxları lazımsız sayır, çünki heç kəsin qolundakı saatla düz gəlmir. Atası səksən beş yaşlı körpəni qocalar evinə aparır. Qapını ağzına "körpəsini" tullayaraq canını qurtarır.

Şəhərdə saat tərsinə işləməyə davam edir.

Benjamin stolda rahat oturur, yeriməyə başlayır, piano çalmağı öyrənir. Hamı onun beş yaşında olduğunu düşünəndə Benjaminin 80 yaşı olur. Üzü qırış-qırış olan bu "qoca uşaq" gün keçdikcə cavanlaşır.

Müharibə bitib, fəqət general Linzo hər gün həyatindəki Amerika bayrağını qaldırır. Maraqlı bir veteran vərdişidir..

...yorulan hər şey dayanır, bircə saatdan başqa, o tərsinə dövr etdikcə Benjamin cavanlaşır.

Benjamin yaşa dolduqca həyatla daha yaxından tanış olur. Məsələn:

Tənhalığı: analığının gecə onu başqa otağa keçirib əriylə rahat yatmasından sonra tanıyır.

Ölümü: qocalar evində dünyasını dəyişən yaşlıların bu sonuncu jestlərindən başa düşür. Mǝncǝ, ölüm hamının gördüyü sonuncu işdir.

Dünyanın faniliyini qocalar evində ölənlərlə, yaşlanıb bura gələnlərdən başa düşür.

Qocalar evindəki nənəsini yoxlamağa gələn Deyzini sevir. Beləliklə sevgini də tanıyır.

Hər dəfə cavanlaşan Benjamin gəmiyə işə girir. Bir yolluq evdən ayrılır, və müstəqil həyatı tanıyır. İstirahət günlərində “Qış sarayı”adlı oteldə qalır. Elizanbetlə - əri ilə xoşbəxt olmayan qadınla münasibət qurur, hər gecə kürü yeyə-yeyə şərab içirlər. Fransız ətri və şərabı üçün yaşamağa dəyər...

Bu sevgi də uzun çəkmir, müharibə, Yapon bombardımanları başlayır. Elizabet də şəhəri tərk edir. Xoş gecələrdən sonra Benjaminə belə bir qeyd yazıb qoyur: “Səni tanımaq gözəl idi”. Beləliklə, Benjamin ayrılığı da tanıyır.

Müharibə vaxtı kapitan və dostları da əzrailin istədiyini verirlər. Beləliklə Benjamin dost ölümünü də görür. Evdən ayrıldığı müddətdə uşaq vaxtı oynadığı Deyziyə tez-tez məktub yazır. Deyzi isə bu qocanın onu sevməyinə inanmazdı. Benjamin yaşa dolduqca dərisinin qırışları azalır, saçının ağları qaralmağa başlayır. Normal insan olan Deyzis ətə-əndama dolur və az vaxtda şəhərin ən gənc və tanınmış balerinası olur.

Müharibə qurtarır...

Bir az da gənc Benjamin doğulduğu şəhərə qayıdır. Atasını görür. Atası ona həyatında bilmədiyi əhvalatları danışır. Benjamin atasını tanıyır. Bir müddət sonra atası ölür. Gec tapılan tez itər.

Saat tərsinə fırlanır. Bütün insanlar narahatdırlar, qocalıb öləcəklərini görə.

Benjamin də narahatdır, cavanlaşa-cavanlaşa uşaqlaşacağına görə.

Benjamin yenə Deyzilə münasibət qurur, qəhraman kiçildikcə eşqi böyüyür. Nəticədə bu eşqin bəhrəsindən bir qız uşağı doğulur.

Benjaminin narahatlığı artır, düşünür ki, Deyzi bir neçə ildən sonra kiçikləşərək uşaqlaşan özünə və qızlarına baxmalı olacaq. Deyziyə əziyyət vermək istəmədiyinə görə ayrılıb gedir.

Filmin sonunda sevgilisinə uşağı kimi baxan Deyzinin qucağında cavanlaşa-cavanlaşa kiçilən və körpəyə çevrilən Benjamin ölür.

Getonun saatı artıq şəhərdən çıxarılır və suya qərq olmuş köhnə zirzəmidə işləyir, özü də əvvəlki kimi – tərsinə.

“Oskar” mükafatı almış bu sənət əsəri bir daha Amerka film mədəniyyətinin dünyaya ünvanladığı böyük kültür ərməğanıdır. Bred Pitin baş rolda oynadığı və böyük kadr potensialı olan filmin rejissoru məşhur Devid Finçerdir. Film dahi yazıçı, üslub ustası Frensis Skott Fitsçeraldın əsəri əsasında çəkilib. XX əsrin əvvələrinin yaşam gündəliyi, əşyaları, təfəkkürü, eşqi insanın gözünün önündə tam mənada açılır. Klassizmin modernlə sintezindən yaranan filim, qərb fəlsəfəsi üstündə qurulub.

Benjamin niyə yaşlı doğuldu?

Hamının iyrənərək baxdığı bu qoca görkəmli uşaq niyə ölmədi?

Benjaminin cavanlaşaraq ölməyi hansı mənanı kəsb edir?

Bəs Benjaminin qızı nə üçün qoca doğulmadı?

Getonun hazırladığı saatın ideoloji mənası cəmiyyətdə niyə özünü doğrultmadı?

Birinci sualı belə şərh etmək olar ki, Benjamin müharibənin bitdiyi gün doğulmuşdu və o əslində sadəcə müharibənin acı nəticəsinin insani simvoludur.

İkinci: Allah dünyada heç bir şeyi lazım olmasa yaratmaz. Amma binəva insanlar nələrisə özlərinə lazımsız saya bilərlər. Benjaminin niyə elə doğulduğunu anlamayan cəmiyyətlər (atası) tez-tez müharibələrlə üzləşəcəklər.

Üçüncü: Benjamin əslində dünyanın simvoludur. Necə ki, illər keçdikcə dünyanın sonu çatır, eləcə də filmin qəhrəmanı yaşlaşdıqca kiçilir... İnsanlar Benjaminə baxaraq dünyanı dərk etməli idilər. Amma təəssüf ki, təəssüf...

Dördüncü: Benjaminin qızı ona görə atası kimi doğulmadı ki, artıq cəmiyyət heç bir ibrət almadı. Hər şeyi adi qarşılayan və adi təkamül nəzəriyyəsi ilə əlaqələndirən insanlar, əslində Yaradanın gizli şifrələrini şərh etməyə acizlik göstərirlər. Nəticədə adi şeyləri anlamayan insanlar məhz elə adiliklərdən ötrü də böyük savaşlara atılırlar.

Beşinci: Geto da zamanı qabaqlayan adamlardan biri idi və o heç ummazdı ki, Benjamin adlı biri doğulacaq və hazırladığı saat bircə onun zamanını göstərəcək. Yenə də heç bir şey atılmalı deyil. Belə ki, Getonun saatını hamı lazımsız sayır, amma o saat Benjaminin ömrüdür. Benjamin öləndən sonra da, hətta sulara qərq olmuş zirzəmidə də işləyir. Çünki o dünyanın saatı, bəşəriyyətin mövcudluq aktıdır.

## 312. MƏN BİLİRƏM

Qız: Bunlar nə gözəl güllərdi...

Oğlan: Sən güllərdən daha gözəlsən.

Bilirəm, həmişə belə olur, həmişə qızlar güllərdən daha gözəldi. Yuxardakı dialoq hər vaxt belə baş tutub, bundan sonrada belə olacaq. Heç bir oğlan həqiqəti deməyib hələ. Mən bilirəm…

Bilirəm Koroğlu həmişə qalib gələcək, dəlilərini döyüb sonra dost olacaq. Nigar xanım vəfalıdır deyəcəyik. Məndə bu fikirlə razıyam. Amma Qır atdan ötrü Nigar xanımın Koroğludan küsməsinə, onu yamanlamasına nə deyək? Nədənsə əşyalar hərdən insanlardan daha qiymətli olur. Nədənsə, biz yalanları da brendləşdirmişik.

Koroğlu döyüşün şirin yerində sazı alıb görək nə dedi: Ay bədbəxtlər, döyüşündə ortasında saz olar? Düşmən söz qanan olsaydı elə müqavilə bağlayardıq, razılaşardıq da!

Mən bilirəm yenə Oğuz eli iki yerə parçalanacaq, yenə dış oğuz namərd çıxacaq. Yenə Qorqud gəlib ad qoyacaq. Məni bir sual düşündürür həmişə. Buğac buğanı öldürməmişdən əvvəl adı nə imiş, o bədbəxti necə çağırırdılar? Bu ölkədə qəhrəman olmayan yox idimi? Nə isə, dastan-fantastika janrın özəl semantikasına qarışmayaq.

Mən biirəm, yenə Dəli Domrullar var, amma daha Əzrail onun sinəsinə çökə bilmir. Çünki Dəli Domrullar əzraillərə çoxdan görüm-baxım ediblər.

Servantes "Don Kixotu" yazaraq İspan xalqını cəngavərlik romanından ayıra bildi. Amma bizi qəzəldən, klassikadan ayıra bilən olmadı. M.FAxundov bu səbəbdən Füzulini sevmirdi. Düşünün: xoşbəxt sevgililər bir-birini həmişə bağda görür, yüz faiz də bahar çağı olur. Həmin bədbəxtlər ayrılanda mütləq payız - xəzan olmalıdır. Ümumən, məhəbbət qəzəllərinin əksərində belə olur. Bu işin bir tərəfidi. Şablonlaşmış fəlsəfədi… Gəlin, işin digər tərəfinə baxaq. Deməli, bu başı örtüklü, ayağı çarıqlı sevgililər ən azı üç-dörd ay görüşürlərmiş. Bahardan payıza qədər.  Bu gündə belədi. Sevgililər milli parkda, otel otaqlarında görüşürlər, qəzəlbazlarsa hələ bağdan, şeyda bülbüldən yazırlar. Həmin qəzəlbazların əksəri bülbüllə, alabaxtanı seçə bilmirlər, tanımırlar. Amma mən bilirəm, yenə bizimkilər bağda görüşəcəklər, yenə yazıq pərvanə bəxtəvər şamın başına fırlanacaq.

... böyük şairdi, bu xalqın poetik yaddaşı durduqca onun şeirləri unudulmayacaq.

Yubileylərin ən axmaq cəhəti odur ki, yazarlar bir-birinin üzünə baxaraq yalan deyə bilirlər. Yubliyar tədbirə adi yazar kimi qatılır, gedəndə N. Hikmət, Ç.Miloş kimi yola salırlar. Yazıq yubliyarı yubleyində də aldadırlar. Mən bilirəm, yenə belə olacaq, məhz belə...

Allah adamları dünyadan "DELETE" eləyir. Amma biz özümüzü "Format" eləyəndə onlar yadımızdan çıxmır.

Allah sənə rəhmət eləsin, Mirzə Cəlil. Sən bizi müasirləşdirmək üçün nələr etmədin. Amma biz yenə Fatmanisələrlə evləndik, burnumuz qanayanda həkim tapmayıb dəlləyin üstünə qaçdıq. Poçta məktubu atıb evimizə gələ bilmədik. İndi də banklardan kartla pul çıxara bilmirik. İndi də televizorda falımıza baxırlar, arxadan atılan daş topuğa dəymir daha, əziz və hörmətli Nəcəf bəy Vəzirov cənabları!

Bizim axırımız necə olacaq? Hələ də "bacarana baş qurban" kimi atalar sözlərini şüar eləmişik. Salam Sarvan düz deyib "gəl sənə təsəlli verim, darıxma düzəlməyəcək". Amma biz Nazim Hikmətə daha çox inanırıq "Gözəl günlər görəcəyik cocuklar, günəşli günlər görəcəyik".

"Düşündüyün kimi danışırsansa, danışdığın kimi varsansa, deməli, azadsan", bu sözləri Çingiz Əlioğlu deyir. İndi ey oxucu, özün düşün sən azadsanmı? Azadsansa lap yaxşı, Allah işini avand eləsin, azad deyilsənsə, sənə dua etməyəcəyəm, çünki artıq Allah səni cəzalandırıb. Amma çoxlarının azadlıq dirəkləri məhləllərindən uzaq deyil. İnsanlar hələ bir-birinə "suuussss" deyib yaşayırlar.

Azadlığı olmayan adamları "Backpace" ilə bir-bir pozmaq lazımdır ölkədən. Bizdən sonrakılar yazıqdı…

Pullu adamların adını hər yerdə böyük yazacaqlar, onlar üçün hər vaxt "CAPS LOCK" düyməsi işləkdir.

Mən bilirəm Hacıqara "Xəsis"dir, Şeyx Nəsrullah isə "Allah adamıdı".

Qəribədi əvvələr şeyxlər din adamı olurdular, indi meyxana əhlidirlər. Ömrün dayanacağında gözləyirəm, görəsən daş nə vaxt gələcək başıma.

Meyxana artıq bədiyyə oldu, rep də dini mətin olacaq, bilirəm. Çünki hər şey yaxşıya doğru gedir. Mən bilirəm, hər şey yaxşı olacaq. "Gözəl günlər görəcəyik cocuklar, günəşli günlər görəcəyik".

## 313. CIRTDANIN İŞIĞINA TƏRƏF

Bütün qapıların iki tərəfi var – açan və bağlayan tərəf. Qapıları açanın üzündəki təbəssüm qapını döyənin yorğunluğu ilə tərs mütənasib olur bəzi axşamlar, (çox vaxt) ona görə bütün narazılıqlar, bütün ailə-məişət davaları gecə doğulur, bütün sülhlərsə gündüz. Gündüz işıqlıdır, göyərçinlərsə ağ! Allah gecəni nələrisə gizlətmək üçün yaradıb deyirlər, insanın ürəyi insanın gecəsidir, deməli, insanın içi görünmür və orda həmişə nələrsə gizlənir.

Bütün ağrılar bəlkə də bizi sınamaq üçündür, biz bəlkə də laboratoriya dovşanından özgə bir varlıq deyilik? Yalnızlıq insanın özəlliyidir və yalnızlığımızdan şikayətlənirik, yalnız olmaq istəyirik, amma insan çoxluğunu heç vaxt dəyərləndirə bilmirik. Çünki çoxluqda düşünmə, dəyərləndirmə imkanımız olmur.

Dilənçilər bizim üçün dua edirlər: “Allah sənə kömək olsun”. Gərək bu sözü pul verərkən biz də onlara söyləyək, çün əsl kömək onlara lazımdır. Hər ağızda bir dua var deyirlər, biz də hər qəpiklə bərabər onlara bir dua etsək daha yaxşı olar. Şəhərdə papağını yerə qoyub tütək çalan uşağın aqibəti məni daha çox düşündürür. Sanki biz sənətin küçə səviyyəsinə enməyinə görə ona pul ödəyirik, o da bunu qəbul edir. ”Əsl sənətkar” kimi.

Bütün yollar bir-birinə birləşir, bütün ağrılar bir-birinə oxşayır, sanki biz kiminsə yarımçıq qalmış ömrünü tamalayırıq. Və bir gün Əzrail “Dünya” restoranına gəlib bizi sifariş verir. Və bu da son.

Son sözünün arxasına üç nöqtə qoyan adamların ümidlərinin böyüklüyü məni təccübləndirir (bu hal mənə də aiddir), nöqtə daha çox tamamlamadır. Amma həm də onlara haqq qazandırıram, bəlkə də onlar sonun sonrasını düşünürlər.

Ana bətnindən düşdük bazara,
Bir kəfən aldıq endik məzara.

“Qızıl balıq” nağılı yəqin yadınızdadır, əvvəl kasıb, sonra varlı, sonra yenə kasıb. Biz də beləyik. Dünyaya lüt gəlirik, sonra varlanırıq və bütün pulumuzu yığıb kəfən alıb gedirik qara torpağa. Bəzi varlılarsa sanki daha bahalı kəfən almaq üçün çalışırlar. Yunus Əmrənin yuxarıdakı misrasındakı bu məna bizim həyatımızın həllidir. Gedək üzü it hürən tərəfə, ən azından həyat öz mövcudluq aktını orda səslə sübuta yetirir.

Uşaqlar kağız gəmilərinin suda cırıldığına təccüblənir, amma suyun böyük gəmilər batırdığını xatırlamırlar. Uşaq təmizliyi və ümidi ilə yenə dəftərindən vərəq çıxarıb yeni gəmi düzəldirlər. Kağızlarına və suya güvənərək.

Böyük otaqlardan balaca adamların çıxması, həmin adamların içindən bəzən adamların çıxmaması hallarını gördüm həyatda. “Kinder”indən hədiyyə çıxmayan uşaqlar kim ağlamaq istədim.

Çırtdan nənəsinin yaxmacını yeyə-yeyə gedir. Odun qırıb qayıdacaq, odununa dostları kömək edəcək. Hərdən qorxaq nağıl tiplərinə də “nağıl qəhrəmanı” deyirlər. Təəccüblüdür, bu qədər qorxaq adama da qəhrəman deyərlər? Görünür adamın canı çıxınca adı çıxsın da, lazımlı ifadədir. Koroğlunun dəlilərini şizofrenik olduğunu zənn edən “Ölü canlar” tanıyıram. Adamları silkələyin bəlkə, içlərindən adam töküldü.

Baxmayaraq ki, təzə gün gecə saat 12:00 dan sonra başlayır, amma hamı günü səhər oyandığı vaxtdan hesablayır, çünki işıq cahanda o vaxtdan başlayır. Deməli, işıq başlanğıcdır nə isə, gedək işığa tərəf.

Ah Puşkin, Puşkin, şairlər ölürlər e... şairlər! Dueldə ölmək necə də maraqlıdır, içində, daxilində ölməkdən. Bəlkə sən sözü udmuşdun Puşkin, sözü udanlar silaha “təslim” olurlar axı. Qəhrəmalar iki cür olur, söz və qol qəhrəmanı. Hər gün bu dünyada “bir, iki, üç deyib” özünü mənən öldürən adamları görəndə, onların necə balaca olduğunu, bizlərdən nələri umduğunu görəndə elə bilirəm ki, bura “Liluputstandır” mən də Qulliver.

Ümumiyyətlə dünyanın 371 Mln kv/km-dir deyənlərinin də səmimiyyətinə tam inanmıram. Çünki dünya bizim dəyərləndirdiyimiz, qavradığımız miqyasdadır. Adamların bəzilərinin içindəki “xəritələr” cırılıb.

Kaş bütün dərdləri də ürəyimizdən siqaret tüstüsü kimi buraxa biləydik. Amma bizim daxili samovarımızın tütkeşi qapalıdır. Tüstü özünə vurur. Bax bu da adlanır ürək yanğısı. Yanmaq həm də işıq salmaqdır, gedək işığa sarı...

Qərbədir ki, heyvanlar güzgüyə baxanda heyvan olduqların anlayıb qorxurlar. Amma hər səhər güzgüyə baxıb saçlarını darayan adamlar insan olduqlarını xatırlamayaraq qeyri-insani işlər görürlər. Aynada əclaf da, idiot da, vicdanlı da görə bilərsiniz. İçinizdəki adamı tanısaq, çölümüzdəki (əksimizi) adama salam verməyin nə dərəcədə doğru olduğunu başa düşərik. Nə isə, yazmaqla qurtaran deyil, yazmaqla qurtarmaq olsaydı, daha biz yazmazdıq, bizdən əvvəlkilər yazıb qurtarardılar çoxdan. Gedək işığa sarı. Ey Cırtdan, məni də gözlə...

## 314. HƏQİQƏT

Czuan Tszı yazır ki, “Həqiqəti öz həyatınla dərk etməlisən, onu məktəbdə öyrənə bilməzsən”. Dünyada “həqiqət məktəbi” yoxdur və onun mövcudluğu həqiqət deyil. Yəni kimsə həqiqəti anlatmır, sadəcə sən yaxşını yamandan seçib onun həqiqətini tanıyırsan. “Ürəyini qolları”nın arasına alırsan və bu anda gerçəklik əsl HƏQİQƏTlə realizə olunur. Bəzən belə bir şey söyləyirlər – “onsuz da həqiqət ağrılıdır, bəzi hallarda hər şeyə nikbin baxmaq lazımdır”. Bu fikir birinci halda özünü aldatmadır. Yəni ölmüş quşun yanından iyrəndiyin üçün gözünü yumub keçirsən. Əslində isə o quş var. O, həmin yerdə ölüb və onun pis qoxusu sənin burnunda “yaşayır”. Dostoyevski yazır ki, “Həqiqətin qarşısını heç bir duman kəsə bilməz”. Məsələn: Napaleon dövrünün Fransası iyrərənc idi. Amma Napaleona görə “gözəl” idi. Sonra necə oldu? Napaleon da ömür boxçasını yığıb

qəbrə getdi. Hazırda Fransada onun ideoloji mərkəzi var və onun haqqındakı həqiqətləri açıqlayır. Yaxud üç il öncə Stalinin həyat və fəaliyyətini araşdırmaq üçün Rusiya Elmlər Akademiyası əmr verdi. Və onun haqqında yüzlərlə tədqiqat əsərləri yazılacaq. Deməli, Napaleon da, Stalin də duman idilər. Onların dövründə qorxudan yazılan kitablar da. Artıq həmin duman çəkilir, yoxdur və insanlar həmin dumanın arxasındakı mənzərəni – HƏQİQƏTi görmək istəyirlər. Bu məqamda C.Oruellin məşhur bir sözü düşür yadıma, "İstəsək də, istəməsək də həqiqəti qəbul etmək məcburiyyətindəyik". Bu fikir isə, məncə bir qədər yumşaq desək, ancaq qorxaqlıqla bəraət qazana bilər. Bizim istəmədən qəbul etmədiyimiz həqiqət nədir? Bizim etirazımız?! "Yox" dediyimiz nəsnələr. Biz etiraz edib o həqiqətlərin qarşısını ala bilmiriksə, deməli, biz onu istəyirik, ən azı özümüzü qorumaq, başımızı salamat saxlamaq üçün. Axı azadlıq da həqiqətdir.

M. Servantes öz dövrünün hökmdarına ünvanladığı əsas ismarıc bu idi: "Ən müdrik siyasət həqiqəti söyləməkdir". Biz bir qədər əvvələ getsək və bizim dildə desək, bu o deməkdir ki, "Ən böyük biclik düzlükdür". Məncə həqiqət biclikdən keçə bilməz, çünki ilkin halda onun yeganə yolu yenə həqiqətdən keçəcək. Yəni, həqiqət elə HƏQİQƏTdir. Onun yoluna kimsə çıxa bilməz. Həqiqət yalnız həqiqətlə toqquşa bilər. Bu zamansa...

"Həqiqəti öyrənməyə heç kəsin gücü çatmır" (J Vondel). Bu fikirsə tamam absurddur. Bir növ passiv romantikadır, özünü aldatmadır, yalanı qaşıqlayıb yeməkdir. Həqiqəti öyrənməyə hamının gücü çatır, amma onu qəbul etməyə və öz həyatında xarakterizə etməyə gücün çatmır. Məsələn: XX əsr Azərbaycan ədəbiyyatında C.Məmmədquluzadə sırf realist üslubda yazırdı. XIX əsrdə çörəyindən burun çıxan Qoqolun qəhrəmanı kimi. Amma romantiklər isə iki cəbhəyə ayrılmışdılar – gələcəyi və keçmişi çağıranlar. Yəni, bəziləri istəyirdilər ki, əvvəlki türkçülük, "turançlıq" qəbul olunsun, bəziləri deyirdilər ki, uğurlar hələ öndədir və demokratik cümhuriyyət yaranmalıdır. Reallıqsa ondan ibarət idi ki, indi kassa aparatından pul çıxara

bilməyənlər kimi Novruzəli poçtalyonla davaşırdı. Əlbəttə, romantiklərin cümhuriyyət qurulmasında əməyi böyükdür, danılmazdır. Bütün ideologiyalara ən azından ideasına görə, fikir tarixini genişləndirməyə görə minnətdar olmaq lazımdır. Amma həmin dövrün ədəbiyyatının zirvəsi HƏQİQƏTdir – Mirzə Cəlildir.

Q.Qaliley məhkəmədə yerin fırlandığını təkzib edir. Amma dilinin altında mızıldanır – "Hər halda fırlanır". Bax bu, sükutun həqiqətidir. İnsanlar onu qışqıra-qışqıra yox, pıçıltı ilə qəbul etdirirlər.

Həqiqət Don Kixotluq deyil, amma Don Kixot həqiqətdir. Don Kixot həqiqətdir ki, XVI əsrin Avropa insanı cəngavərlik xülyasındadır. XX əsrin Şərq insanı Günəşin Şərqdə doğması ilə öyünür. Həqiqət də məlum olduğu kimi iki yerə bölünür: İlahi və insani həqiqət. İlahi həqiqət dünyanı dərk etmədir. Yaradan yolu ilə öz həyat həqiqətlərini tamamlamaqdır. İnsani həqiqət özü də iki yerə bölünür. (Həqiqət bölünməzdir, bu, müəyyən mənada şərti xarakter daşıyır). Yəni, insanın inandığı həqiqət – " Məhəmmədhəsən əminin eşşəyi nə vaxtsa gələcək". Bu yolda bir ömür hədər getmədir. İkinci həqiqətsə, gördüyün həqiqətdir. Bu vaxt isə həqiqətin sənə dəxli olma dərəcəsindən aslı olmayaraq sən ona tabesən. Ən uzağı onu ömrün hansısa daşının altında gizlədə bilərsən. Həmin daşısa, mütlək bir gün kimsə tərpədəcək. Mütləq...

## 315. ƏSGƏRLİKDƏ NƏ ÖYRƏTDİLƏR?

Şəpiyin üstündə qələmlə yazırlar: "Şəpiyi geyinib, sonra qaytarıb yerinə qoymayanın..."

Hər gün eyni həyatı yaşayırsan, eyni şeylər üçün, eyni əziyyətləri çəkirsən, eynən dünənki eyniyyətlər, bugün də, sabah da, olacaq.

Ölkədə yeganə yer hərbi hissədir ki, sabahın üçün "yüz faiz" sözünü deyə bilərsən.

Əsgərlərin hamısının dilində bu ifadələr var: “Gedəndən sonra”, “Xidmət bitəndə”, “Evimizdə olanda...”.

Keçmişini unudaraq yaşayırsan burda, dörd bir tərəfindəsə ancaq gələcək var.

Həftə sonlarına dikilir hamının gözü: Şəhər buraxılışı olacaq. İcazə ala bilənlər üçün bayram olur, ala bilməyənlər isə nisgilinin üstünə gözləmək də əlavə edir.

Burda yemək yeyəndə də gözləyirsən, su içəndə də, iş görəndə də, bayramda da.

Təqvim hazırlayırlar və hər gün bir günün üstündən xətt çəkirlər.

Barmaqların üstündə yazılar “S+A”, ANA, ATA və.s

Qolların üstündə, qartal, od, qız şəkilləri...

Əsgərlərin “unudulmaz” nitqləri:

– Özüm ölüm evə bir yığılma forma ilə gedəcəm ki, gəl görəsən. İyul buraxılışından heç bir hərbi hissədən belə efir oğlan tərxis olunmayacaq gedəndə”.

- Hərbi hissədə bu oğlandan tez tərxis olunan adam yoxdu. YEKəm e YEK.

Filankəsin daydayısı var, ona görə göynən gedir.

Ay da, sabah filankəsdi gün növbətçisi, başımızı xarab eləyəcək e... yenə.

Bu qışı da yola versək, üç ayımız qalıb.

Özüm ölüm, kapitan bilsə “minəcək” bizi...

Axşamüstü olan kimi qəm tütəkləri düşür işə, hərə bir siqaret tüstülədir.

Burda hər darıxdığın adama bir siqaret ithaf etməlisən.

Yox əgər mənim kimi siqaretə “yox” demiş adamsansa, buyur əyləş və başla dırnaqlarını yeməyə.

Burda lovğalanmağın yolları: Papağın rezinini kəsib genəltmək, mülkü alt geyimi və çorab geyinmək, “KENT” çəkmək, kəməri boş vurmaq, botinkanın ipliklərini çıxartmaq.

Özləri ilə fəxr edənlər: kimisə söyənlər, döyənlər, haupvaxtda “ZEK” olanlar.

Ləzzət aldığımız şeylər: Təzə bulyo (əsgər alt paltarı) almaq, saat 21:00-dan 23:00-a qədər posta çıxıb, sonra 06:00-a qədər yatmaq, "qreçka" bişməyən günlər, şorbandan döş əti çıxan vaxt, konservanı bütöv yediyimiz naharlar və bir də unudulmaz cümə günləri. Çünki cümə günləri əsgərlərə meyvə şirəsi verirlər. Cümə günləri hərbi xidmətdə daha müqəddəs olurmuş.

Mahnı oxuyanda komandirlərin gözündən uzaq olan kimi, ya da öz aramızda "Vətən" mahnısını əsgər yoldaşlarımın qoşduğu (filmə əsasən) bu mahnıyla əvəz edirdik.

Avtomatı almışıq biz atmağa
Almamışıq güllələri satmağa.
Öyrənmişik gecə postda yatmağa.
Durub gecələr gedərəm davaya
Ol mənə dilbər gedərəm davaya

O qız mənə bircə dəfə "HƏ" desə,
Gedib-gedib arxasınca səsləsə.
Çəkərək həsrət yolumu gözləsə
Olub bəxtəvər gedərəm davaya.
Ol mənə dilbər gedərəm davaya

Rəhmətlik Şahlar babam pinti adamlardan birinə bir dəfə belə deyib: "biz sənə təmizliyi öyrədə bilmədik, amma sən bizə pintiliyi elə öyrətdin ki, elə bil dədə-babadan beləcə pinti olmuşuq". Misalı söz olsun deyə gətirmirəm: Biz ali təhsil almayan çoxluğa idraklı və nümunəvi, mədəni xidməti aşılaya bilmədik, amma onlar deyəsən, bizə öz bildiklərini yaxşıca öyrətdilər.

Bir il keçdi e, zarafat deyil.

## 316. SON ZƏNG KÖYNƏYİ

Aradan illər keçəcəkmiş və biz uzaq illərin arasına bir müddət sonra ÖMÜR deyəcəkmişik... Və bir vaxt gələcəkmiş ki, nəhayətsiz dərəcədə böyüyən keçmiş özünü bizə xatırladanda, bağrımızdan bir ah qopub düz sinəmizi yardığı yerdən indiki zamana qədər öz şırımı ilə axıb bizi ağrıdacaqmış.

Biz onda hələ ən böyük idealı ali məktəbdə təhsil almaq istəyən yeniyetmələr idik, indi isə Şeksprin məhşur "olum və ölüm" kəlamının arasında vurnuxaraq həyatda özünə yer etmək istəyənlərik...

Sən demə, dünya bizim istədiyimiz kimi olmayacaqmış, bizi istədiyi kimi edəcəkmiş və hər şey bitəndən sonra, biz hər şeyə bircə ad verməyə məcbur olacaqmışıq – TALE.

Oğlanlar hərbi xidmətə və tələbəlik həyatına atılacaq, qızların bəziləri təhsilini davam etdirəcək, yerdə qalanlarda "ƏRSTAN"a gedəcəklərmiş...

Sən demə, adamları şəkil kimi ürəyindən asmalı olacaqsanmış, amma şəkilə belə baxmağa bəzən vaxtın olmayacaqmış...

Onları itirməmək üçün telefona qeyd etdiyin nömrələrdən aylarla zəng gəlməyəcək, adamlara olan sevgin ürəyində işlənməməkdən paslanacaqmış...

Bir səhər kimisə yuxunda görüb məktəb illərini xatırlayacağıqmış. Bütün bunlar onun izahıdır ki, yuxular gündüzün əlçatmazlığına qovuşmaqdır. Amma həyat yuxu qədər şirin deyil... Təəssüf...

Qızlar uşaqlarına sevdiyi oğlanların adını qoyacaqmış, oğlanlar şəhərin tozuna bulanacaqmış, sən demə. Təzə dostlar tapanlar köhnələri unudacaq, köhnə yaraların da yeri ağrımayacaqmış.

Hərə öz "problemlərinin atı"na minib uzaqlaşacaqmış dərdlərinin yanına... Göyə baxıb göyü, yerə baxıb torpağı görməyə gözümüz olmayacaqmış...

Qızlara içdiyimiz andlar, qızların verdiyi sözlər, qurduğu xəyallar kurqanlar, qəbirlər kimi ürəyimizi qazarkən hərdən üzə

çıxacaqmış... Amma nə yaxşı ki, köhnə qəbirlərə ağlayan tapılmır heç vaxt...

Hər il son zəng çalınacaq və hər il eyni doğrular müxtəlif adamların dilində yalanlaşacaqmış...

Səhər şirinçayı daha tələsik içilir, ali məktəbin yalanları da daha ALİ olurmuş; orta məktəbin nişanlanmaq vədləri burda evliliyə qədər yüksələrmiş. İllər bizi yaşatmaq üçün deyil, illər bizi qurtarmaq, tükəndirmək üçündür... Məktəbi... universiteti... ömrü...

Hərdən əlinə köhnə şəkillər düşür. Kədərlidir: şəkillərdən və xatirələrdən özgə heç nə yoxdur... Hardadır iki alıb cırdığın gündəlik vərəqləri, çəkə bilmədiyin şəkillərin cızma-qarası, müəllimlərin imzaları.

... indi yolda qocalan, dəyişən müəllimləri görəndə adam dəhşətə gəlir. Dünya boyda da cəhənnəm olar?

Məktəbin dəyişən otaqlarını, təzə müəllimləri, təmirli dəhlizləri görməyə adamın gözü gəlmir. Adama elə gəlir ki, ustalar bizim xatirələrimizi divarlardan qazıyıblar, ləpirlərimizi döşəmədən mismar kimi çıxardıblar. Bütün bunlardan sonra təsdiq etməli olursan ki, yenilik həm də köhnəliyə xəyanətdir....

“Ərstan”da olan qızlar, rəfiqələrindən daha dərs yerini yox, təzə uşaq yeməklərinin adlarını soruşurlar. Dünya fırlanır və hər dəfə bir az da fərqli çıxır adamın qarşısına...

Hər şeyin bu qədər dəyişdiyini anlayanda başa düşürsən ki, dünya boyda dünyada özün boyda təksən.

O gün son zəng köynəyimin üstündəki yazıları oxuyuram. Sinif yoldaşlarım, dostlarım, müəllimlərim arzularını yazıblar. Hətta son zəng günü dükana girəndə köynəyimi yazılı görən dükandar da yazıb.

“Fərid, sənə uzun ömür, can sağlığı arzulayıram”. (Alim Məmmədov – sinif yoldaşım).

“Fərid sənə həyatda uğurlar”. (Baloğlanov Zərbalı–sinif rəhbəri) və.s...

Həmin gecə köynəyimə özüm də bir neçə cümlə yazmışam. "Həyat bir oyundur: Hər kəsin öz rolu var. Ssenarini Allah yazır. Bir gün necə olursa olsun, ən böyük adamlardan olacam. Mənə edilənlərin qarşılığını mən, mənim etdiklərimin cavabını Allah verəcək. Bu gün məktəbdən ayrıldım, acılı şirinli xatirəsi ilə. Təbii ki, sinif yoldaşlarımdan – Fərhaddan, Rövşəndən, Raqifdən, Aynurdan, Fəridədən eləcə də Könül, Firəngiz, Vəfa, Ələkbər müəllimdən darıxacağam. Əlvida bu məktəbdə yaşadığım illərə, aylara, eşqlərə, davalara."

İndi dörd il əvvəl yazılmış bu Otello monoloquna bənzər cümlələrə baxanda gülürəm. O ideallar, o xəyallar necə də bəsit və maraqlıdır. Dörd ildə nələr olub, nələr görmüşəm, müşahidələrim, qənaətlərim, nəticələrim, səhvlərim və.s... Səhvlərim mənə səhv etdiyimi öyrədib. Amma yenə də içimdə həmin oğlan – həmin "Otello" yaşayır. Amma daha həmin monoloq yoxdur. Bəlkə də həmin "Otello" daha xoşbəxt idi. Bəlkə də...

## 317. DİZLƏRİ QATLANIR

Atam xəstəxanadan qayıtmışdı. İki ay idi ki, üzünü görmürdüm. Bacım atamın gəldiyini mənə muştuluqlayanda oyunu yarımçıq qoyub qaçdım. Uşaqlar nə qədər arxamca çağırsalar da geri dönmədim, amma kaş dönəydim. Qapı dəstəyinə əl uzadanda içəridən açıldı və atamı qarşımda gördüm. Cəld qucağına atıldım. Xəstəxanada zəifləmişdi, ağırlığımdan dizləri qatlandı. Sonra ayağa qalxa bilmədi, beli sərpmişdi. Evə apardılar, türkəçarə ilə məşğul olan Zahnisə arvad gəldi, müalicə elədi atamı. Həmin hadisədən beş-altı ay sonra... atam bu dünya ilə vidalaşdı. O gündən bəri kimi möhkəm qucaqlayıramsa, o dəqiqə atamın dizləri qatlanır.

## 318. YAPONLARIN YORĞUNLUĞU

Məncə, Robot düşünən insanın intellektual zəhmətinin nişanəsi deyil. Robot yorulan insanın intellektinin bəhrəsidir. XX əsr dünyanın yorğunluq dövrü idi. Yaponlar II Dünya Müharibəsindən sonra külün üstündən dövlət yarada bildilər. Çalışdılar və yoruldular, yorulanda ağıllarına robat gəldi və yaratdılar. Olsun ki, Robot o vaxta qədər də vardı, amma indiki kimi kül halında deyildi.

## 319. QƏRBİN FANİLİYİ

Şərq və Qərb ixtiralarının (əksərən, həmişə yox), qəribə bir fərqi var. Şərq ixtiraları tərpənməzdir, qərb ixtiraları isə hərəkətlidir, (maşın, motor sistemi, robot), sürətlidir. Bəlkə, Qərbin xislətində tərəqqi var, hərəkət inkişaf deməkdir. Şərqdə inkişafın ləngliyi də ixtiraların sürətsizliyi və hərəkətsizliyi ilə az-çox olsun ki, bağlıdır.

Şərq əbədiyə (sufi xislətinə xas oturağa, tərpənməzə, daimiyə) meyillidir deyə, Şərqdə əbədiyə aşiqdir. Şərq ixtiralarında ifrat sufilərə xas faniyə nifrət duyulur. Şərq ixtiralarında şüuraltı olaraq təkmilləşdimək fikri yoxdur, düzəldilən bir yolluq xidmət üçün nəzərdə tutulur.

Qərb sürətə, irəli getməyə, praktikliyə can atır, bu onların fanilik konsepsiyasıdır. Çünki inkişaf, dəyişiklik fanilikdir. Hərəkət bu gün var, sabah yoxdur, bu gün sürətli sabah yavaşıyır. Komfort hərəkətdədir, dəyişkəndədir. Amma konfort faniliyin ən rahat və labüd formasıdır.

## 320. ALLAHIN QANUNU

XIII əsrdə N.Tusi yazırdı ki, “maddə heç nədən yaranmaz və heç nəyə çevrilməz”. Nə az, nə çox 6 əsr sonra, Lomonosovun “maddənin itməməsi qanunu” kəşf olundu. Qeyd edim ki, həmin qanun uzun illər Lomonosovun yox, Lavuazenin adına yazılaraq

“Lavuaze qanunu” adlanıb. N. Tusinin dediyi də Lomonosovun kəşfi ilə tam üst-üstə düşür. İndinin özündə də bu fiziki qanunun Şərqə, yoxsa Qərbə aid olduğu haqda mübahisələr var. Amma məncə, bu qanunu hamıdan əvvəl Tanrı ilahi həqiqət kimi hamıya göstərmişdi. Göstərmişdi ki, “yaxşılıq itmir”. Hansı formadasa qarşımıza çıxır. Olsun ki, bütün kəşflərin praktik yönlərində, baş sındırsaq, İlahi ştrixlər tapmaq olar.

## 321. NƏ BİZİ GÖSTƏRİRSƏ

Nə bizi göstərirsə o bizi saxtalaşdırır. Kölgəm mən deyiləm. Gecə kölgəmi saqqız kimi uzadır, günəşsə nəhəngliyində itirir. Gecə də, gündüz də məni mən boyda göstərmir. Mən əyiləndə kölgəmi qatlayıram.

Güzgüyə baxanda gombulluğumu itirmək üçün qarnımı içəri çəkirəm, saçı tökülənlər uzun tüklərini daramağa ərinmirlər, özüm olmamaq üçün arzum olmağa, arzuladığım olmağa razıyam.

Toyda kamera çəkirsə, əlimi yeməkdən uzaqlaşdırıram, o qədər naz-nemətin içində yavanlıq eləməməyin gülünclüyündəyəm.

Ətrafdan baxan göz də məni özümə gətirir, baxırlar deyə “özümü yığışdırıram”.

Televiziyaya çıxanda daha şıq, baxımlı olmağa can atıram. Radioda danışıq qüsurlarımdan xali olmaq əzmindəyəm.

Təzə paltarımı toya və tədbirə geyirəm. Evdə köhnəmi geyməməkdən, nə hacət. Evdə məni görmürlər deyə köhnədəyəm. Görünməmək yoxluqdur. Müğənniləri vizuallıq, ekran doğduğu, tanıtdığı kimi, görünməmək və göstərilməmək unutdurur. Ona görə 2-3 ay oxumayan müğənnilər haqlı olaraq intervülərində deyirlər. “3-4 aydı yox idim”. Yəni:görünməmək vizuallıq dövründə yoxluqdur, ölümdür. Göstərilməmək vizuallığın rəhimsiz gilyotinidir.

Mən, məni göstərən həş şeydə itirəm. Kim nə qədər çox görünürsə, o qədər aramızda yoxdur.

Vizuallıq aşkarlıqdır, vizuallığın aşkarlığı kosmopolitlikdir, üzdən şirələnib.

Göstərilən görüləndə zay olur.

Bizi vizuallığa aparıb çıxaranlar dahi deyil, kim ki, bizi güzgüdə göstərə bilməsə, bizi vizuallıqda itirsə dahi də, xilaskar da odur.

### 322. KAŞ və BƏLKƏ

Bir səhər oyanasan ki, buludlar rəngini dəyişib. Səhər yeməyindən sonra liftin ağzında qoca bir qadınla rastlaşasan. Nə gileylənir, nə də yorğundu. Salamlaşıb keçəsən...

Tıxacsız yollarda gedəsən, dəqiq dayanacaqlarda saxlayalar avtobuslar. Qızların təbəssümlərinin işıqforunda düşəsən tıxaca, dayanıb saatlarla baxasan. Və anlayasan ki, qırmızı rəngdən də başqa rənglər insanı yolundan eləyə bilir...

Sonra o qız əl eləyə, sağollaşa, sənə həyatın yaşıl işığını yandıra. İşə gedib hirslənmədən adamların üzünün saflığında çiməsən, daha metolardan tər iyi gəlməyə. Sən avtobusu, adamlar səni minməyə.

Günorta pəncərədən yerə baxasan, görəsən ki, əlini ağzına salan uşaq bilmədən barmağını dişlədi. Dünyadakı bütün hərəkətlərin bu qədər təbii olacağına inanasan. Ağlayan uşağın yanağından süzülən yaş, böyük bir prospektin tozunu yatıra.

Gözünü yumub özün haqda yox, başqaları haqqında düşünəsən. İnsan özü haqda o zaman çox düşünür ki, öz dərdi çoxalaraq onun başqalarına baxan gözünü bağlayır. Sonra yuxu tuta səni, yuxunda baxçanın həyətində oynayan uşaqları görəsən. Amma yuxuları yozmayasan səhər-səhər.

Oyuncaq dükanlarını uşaqlara bağışlayalar. Ya da, uşaq vaxtı oyuncaq almağa pulu olmayan qocalara.

Qocaların ən çox getdiyi yer əczaxanalar, ən çox danışdıqları mövzu dərman pereparatları olmaya.

Qapıların kandarından təbəssüm asalar. İnsanlar ancaq ürəkləri istəyəndə güləlstartsər. Varlılar üçün ayrı, kasıblar üçün ayrı maska taxmaya insanlar.

Papiros və zavod tüstüləri küsüb gedələr şəhərdən.

Gözəl qızların çantalarından gözəl kitablar çıxa.

"Buyurun", "Çox yaxşı", "Mən də məmnunam", "Allah köməyiniz olsun" sözləri gün ərzində ən çox işlənən kəlmələr ola.

Baltalar ağacları yox, kin-küdurəti doğraya...

Televizoru açasan və eşidəsən ki, İraqda 300 uşaq doğulub. Çeçenlər silah yox, şənlik fişəngi atırlar...

## 323. NECƏSƏN?

Nədənsə həmişə pis şeylər daha cazibədar olur. Yaxud da biz pis şeylərə qarşı çox "şorgöz" oluruq, diqqət edirik, arxasınca gedirik. Misal:

Salam.

Əleyküm.

Necəsən?

Yaxşıyam.

Bu dialoqla fikir tamamlanır. Yəni birinin yaxşı olması onun haqqında olan bütün informasiya əhatəsini qapayır, örtür. YAXŞI ilə hər şey tamamlanır, yəni. Ondan özgə şey soruşmağa lüzum qalmır. Necə deyərlər "əsas can sağlığıdır". Əks hala baxaq:

Necəsən?

Belə də, yaxşı deyiləm.

Niyə?

Xəstəyəm.

Haran ağrıyır?

Ürəyim.

Nə vaxtdan?

İki gündü.

Həkimə getmisən?

Hə.

Nə dedi?

Bu sual-cavabı uzatmaq da olar. Əsl məğzə çatana kimi sualları ipək yolu etməyə dəyməz. Biz əslində bu suallarla – qayğıkeşliklə əks tərəfi daha da narahat edirik. Göründüyü kimi pis şeylər daim çözülür. Amma heç vaxt "Niyə yaxşısan?" – deyə soruşmuruq. Biz həmin yaxşılığı heç bir səbəblə əlaqələndirmək istəmirik. Əgər əlaqələndirsək tərəf müqabilimiz də təəccüblənər.

Necəsən?

Yaxşıyam.

Niyə yaxşısan?

Necə yəni niyə yaxşısan?

Bilirəm ki, əksər hallarda bu sualın cavabı belə olacaq. Biz həmişə soruşuruq ki, "o uşaq niyə ağlayır?". Heç vaxt "o uşaq niyə gülür?" demirik. Biz bəlkə də, ona görə uşaqların sevincini düzgün anlamağa acizlik göstəririk. Biz gülüşü ancaq komediya janrındakı kimi təsəvvür edirik, yəni, gülüşün altında mütləq qatı bir məna olmalıdır. Amma biz uşaqların üzündəki "təbəssüm xanım"la, "gülüş bəy"lə tanış olmuruq. Bu isə fəlakətdir, özü də R. Taqorun "Fəlakət"i deyil, bizim fəlakətimizdir.

## *324.* AĞLINA BATMAQ

*Rüstəm Kamala*

"Ağlına batmaq" ifədəsi dilin imkanı ilə bərabər, həm də idrakın imkanına söykənir, özünə dayaq tapır. Frozeoloji birləşmələr daha çox təhtəlşüurun yaratdığı idraki ifadələrdir. Şüurluluq prosesi dilin əsl qanunları ilə bunları qəbul etməməlidir. Çünki şüurda dərk etmə, qəbul etmədən bir addım öndə dayanır. Biz qəbul etdiyimiz bəzi ifadələrin, xüsusən də sabit söz birləşmələrinin məntiqdən kənarda olduğunu bilirik. Məntiqə görə ağıla heç nə bata bilməz. Amma frozeoloji birləşmələr şəkilində, təhtəlşüur prosesi vasitəsi ilə o ifadələr şüursuzluğun təlqin etdiyi qaydada qəbul olunur. Yaxud:

Mənimçün maraqlı ifadələrdən bir də “sonunu tapır” ifadəsidir. Bu ifadə öz məntiqini özü idarə edir. Hər şeydən əvvəl ona görə ki, həqiqətən insan ilkləri (ucları, başlığı) axtarır, amma sonları tapır. Çünki son ilkin axtarış marşurutu ilə irəlləyir və son ilkin, əvvəlin göstərdiyi yolda dayanır.

**325. OYUNCAQ**

Oyuncaq oynadıldığını bilsə öz-özünü sındırar. Ancaq oyuncaq oynadıldığını, yerə çırpıldığını, əzildiyini, çirkaba bulaşdırıldığını bilmir. Ona görə də oyuncaq öz cansız və acınacaqlı taleyinin əziyyətini çəkir. Bəzi adamlar da belədir, onlar oynadıldıqlarının, ələ salındıqlarının fərqində deyillər.

**326. ALMANIN YARISI**

Almanın yarısı sən, yarısı mən,
Günümüz, gecəmiz, evimiz, eşiyimiz eyni.
Xoşbəxtlik bir çayırdır, tapdaladığın yerdə bitər.
Tənhalıq getdiyin yoldan gəlir.

Bu şeiri tanınmış türk şairi Oqtay Rıfat yazıb. Özü də həyat yoldaşına. Birinci misraya baxaq: “Almanın yarısı sən, yarısı mən”. Niyə görə məhz almanın yarısı? Olmazdı ki, alma bütöv olaydı? Niyə yarım olur bəs? Səbəb: O.Rıfat və olsun ki, çoxları evlənənə qədər “bütöv alma” olurlar, evləndən sonra isə “tale alması”nın yarısını hər kəs özü də bilmədən həmdəminə - həyat yoldaşına verir. Ümumiyyətlə, insan nə qədər çox adamla ünsiyyətdə olursa, o qədər çox “hissələr”ə bölünür. Hər adam bizim az da olsa vaxtımızı – ömrümüzü alır. Xüsusən də yaxınlarımız. “Evlənmək həyatı birləşdirir deyirlər, əslində evlənmək ömrü parçalayır, qadına uşağa, evə və s.”

Qayıdım alma məsələsinə. Tənha yaşayan və öz tənhalığına aludə olan adamlar sevə bilmirlər, çünki belə bəndələr “həyat

alması"nı başqası ilə bölə bilmirlər və bunu istəmirlər də. Tənhalıq uzun müddət davam edəndə eqo hissi ilə əvəzlənir. Tənha adamlar bəlkə daha vəfalıdırlar, çünki onlar heç vaxt öz tənhalıqlarına xəyanət etmirlər, tək qalırlar. İnsan tənha olanda daha çox özü üçün yaşayır və özünü tanıyır. Özü üçün yaşamaq baxımından tənha insanlar daha "uzun ömürlü" olurlar, nəinki sevənlər və evlənənlər.

2-ci və 3-cü misralar gün kimi aydın olduğuna görə şərhə lüzum yoxdur.

4-cü misra şeirin canıdır: "Tənhalıq getdiyin yoldan gəlir". Yolun əsas iki istiqaməti var: gedilən və qayıdılan tərəf. Qadınının getdiyi yoldan O.Rıfatın tənhalığı gəlir. O həm yola salır, həm qarşılayır (itirir və qazanır). O.Rıfat qadınının getməsi ilə bütöv almanın yarısını itirir, qalır yarım alma. Ancaq itirdiyi varlığın əvəzinə əvvəlki tənhalığına qovuşaraq öz "tale alması"nı bütövləşdirir: Özü özünə qalır, daha başqasına parçalanmır. Və bu hal onu təccübləndirmir, ona görə ki, insan qazanmağa və itirməyə məhkumdur. Bütün sevənlər və sevilməyənlər ALMA çürüyənə qədər O.Rıfat kimi hələ çox bütövləşəcək, hələ çox para qalacaqlar.

**327. M-Ə-D-Ə-N-İ-Y-Y-Ə-T**

Nolardı, gündəlik həyatımızın bütün hissələrində süfrə mədəniyyətinin alturistliyi olardı. Süfrədə limonadı birinci qarşında oturan adama süzürsə, əgər bir dilim çörək qalıbsa, əl uzatmırsan. Süfrə mədəniyyətində olan alturistlik cəmiyyətimizin hər sahəsində olsa, onda mən hamını özümdən çox qiymətləndirərəm, dəyər verərəm, hamı da məni özündən artıq düşünər. Nəticənin gözəlliyini özünüz təssəvvür edin.

***328. ƏN BÖYÜK QORXU***

Dünyada ən böyük qorxulardan biri qəriblikdə, yad yurdda vətənindən ayrı olanda, orda qoyub gəldiklərini tapmamaq qorxusudur. Insan qorxur ki, qayıdaram, gedib görərəm ki, həmin adamlardan bəziləri ölüb, bəziləri köçüb, köhnənin yerində təzə var, təzə qoyub gəldiyim tamam köhnəlib...

Bu qorxunu evinizdən 100 km aralıda olanda da hiss edə bilərsiniz, minlərlə km aralıda olanda da. Lakin əslində bu qorxu özü də neytraldır və tam yəqinləşməmiş qorxudur. İnsan məhkum olduğu hallardan və hadisələrdən qorxmamalıdır. İnsan itirməkdən çəkinməməlidir, çünki nə vaxsa, nələrisə itirməyə məhkumuq və qazandıqlarımızın arxasında yaranan boşluğu itirdiklərimiz yaradır, ona görə biz heç zaman qazanmaqdan doya bilmirik. Elə o boşluğu doldura-doldura “əbədi boşluğa” gedib çatırıq. Biz yad yurdda olanda itirməkdən qormayaq, biz qorxaq ki, qoyub gəldiklərimiz dəyişməz, bizə yeni bir varlıq kimi görünməz, əksinə əvvəlkindən də beş-betər ola bilər. Mən həmişə qoyub getdiklərimin dəyişməməsindən qorxuram.

### *329. KAFKANIN QORXUSU*

Yaşının yetmişində qəfil yuxudan oyanasan və görəsən ki, yatağında beş yaşlı uşaqsan və yerdə qalan 65-illik ömrün yuxu imiş və bir neçə saat əvvəl tikdiyin ev, aldığın maşın, sevdiyin qız, oxuduğun univerisitet vardı həyatında. Ən faciəvisi isə biləsən ki, yetmiş il yaşamısan, lakin bu gecə yatmasaydın heç bir şey də yuxu olmayacaqdı. 65-illik ömrünü, həmin insanları itirməmək üçün ömrümüzcə yatmamağa razı olardıq, yəqin. Yataqdakı həmin ağlı yetmiş yaşında adamın ağlı, özü də 5 yaşlı uşaq olan adam nə düşünər görəsən? Bir də təzədən altmış beş il yaşayıb itirdiyi insanları və ömrünü qazanmağımı, yoxsa 65 ildəki səhvlərini düzəltməyi? O adam sevinər ki, ölmüş ata-anası sağdır, uşaqlıq dostları küçədədir, oyuncaqları da yanında. Ancaq onun ağlı böyükdür, həvəsi balaca. Onun içində izdihamlı qorxu yaranacaq ki, o böyüdükcə bu adamları təzədən itirəcək. Həm də

sevinəcək ki, itirəcəkləri olsa da, hələ qazanacağı çox şeylər var. Amma sonra onları da nə vaxtsa itirəcəyini dərk edib qorxacaq. Kədərlənəcək yox ha, məhz qorxacaq. İnsan dünyanı dərk etdikcə ondan qorxur. F.Kafkanın "Çevrilmə" novellası məhz bu qorxuya həsr olunub. "Çevrilmə"+k F.Kafkanın ən böyük qorxusu, Qriqor Zamza F.Kafkanın əksi idi... Kafka onu güzgüdə görürdü, ruhundasa tapırdı. Kafka vərəmdən çevriləcəyini (diridən ölüyə) – və Qriqor Zamza çevriləndən sonra ata-anası ondan üz çevirdiyi kimi – Kafka da vərəmdən  həyatın ondan üz çevirəcəyinə görə qorxurdu. Qriqor Kafkanın içində idi. Bizim içimizdəki adamın dediyini çölümüzdəki - əlində qələm olan adam yazır. Beləliklə Qriqor Zamzanın başına gələnləri Kafka yazaraq məşhur oldu.

### *330. TABUTDAN KƏNAR*

"Orqanizə işlər" adlı türk filmində belə bir səhnə var: Oğrular dəlini tabuta uzadıb aldadırlar ki, səni "Luna" parka aparırıq. Tabutu apararkən çayxananın qarşısından keçirlər, çayxanda çay gillədənlər çaylarını yarımçıq qoyub müsəlman adəti üzrə cənazəyə kömək edirlər. Cənazə çiyinlərində olan oğrular tabutu yanlarına köməyə yaxınlaşan adamlara verirlər. Tabut başqalarına keçən kimi oğrular işə başlayırlar - baş qatışan çayxana əhlinin çiblərindəki pulları əkişdirirlər. Pulları oğurlayanlar, "meyid"in əsl sahibləri aradan çıxandan sonra qəsəbə əhli tabutu hansı qəbiristanığa aparacaqlarını bilməyəndə tabutdan qalxan dəli deyir: "Luna" parka gedirik. Ölü xortdadı deyə cənazəyə kömək edənlər tabutu tullayıb qaçırlar. Bu hadisəni danışan filmin baş qəhrəmanı (Yılmaz Ərdoğan) özünə belə bəraət qazandırır: O gündən sonra başa düşdüm ki, yaşamaq üçün ya tabutun içində olmalısan, ya tabuta kömək edənlərin arasında, ya da bu işləri təşkil - orqanizə edənlərin. Mən də bu yolu seçdim.

Məncə, günahkar özünə yuxarda danışılan fraqmentdən gözəl bəraət qazandıra bilməz. Bu qənaət oğrunun vicdan

rahatlığıdırsa əgər, eyni zamanda Tanrının sözünə məhəl qoymamaqdır. Bütün haramlar, haramçının özünə çox şeyi hala etməsi ilə “halallaşır”. Müəllim və həkimlər əmək haqlarının azlığına görə rüşvət aldığın deyirlər. Ancaq bu yol insanı xilas edir, əməllərini yox. Məsələn: rüşvətxor müəllim pis insandır, amma övladının bütün təlabatlarını ödədiyinə görə qızı və oğlu üçün əla atadır. Gözəllik nisbidir. Bizim həyat zərurətlərindən çıxdığımız tələyə, əməllərimiz ilşir ki, onu da bineyi-qədimdən GÜNAH adlandırıblar.

Kiməsə doğma olan hal, əməl Allaha yaddır. Bəlkə elə bu səbəbdəndir ki, İlahi həqiqət və İnsani həqiqət adı altında həqiqət iki yerə ayrılıb. Həqiqəti bütövləşdirmək üçün gərək insan da İlahi həqiqəti seçsin: əfsus səd əfsus ki, bu hal hələm-hələm olmur. Dünyadan ədalət umanaların nəzrinə: bu dünyada həqiqət də bütöv deyilmiş.

### *331. BİZDƏN ƏVVƏL YAZIBLARMIŞ*

İnsan xoşbəxt olduğunu isti, soyuq, sərin hava kimi hiss etməlidi, insan xoşbəxt olduğunu hiss etməyəndə bu hissi yaşamır.“ Onlar ömür boyu bir damın altında valideyinləri və uşaqları ilə birgə yaşasalar da, kişi axşam evə gələndə idarə işlərindən, qadınsa ev işlərindən şikayətlənirdi, gileylənə-gileynənə ömür etdilər. Yadlarına düşmədi ki, uşaqlarının alnındakı, əllərindəki qızdırmanın, hərarətin də öz ləzzəti var. Əllərinin, yanaqlarının sirkə ilə ovxalanmasının da, hətta bir qədər irəli getsək gecənin yarısı uşaqlara öskürək dərmanı verməyin də, öz xoşbəxtliyi mövcuddur. Onlara elə gəldi ki, Allah onları bütün ömür boyu xoşbəxt etməyə söz verib, ancaq hərdən O da sözündən çıxır. Çətinliklərlə barışa bilmədilər, xoşbəxtliyi ancaq xoşbəxtlikdə axtardılar. Yoxluğa “Hə” deyə bilmədilər. Nəticə də bədbəxtlikdən özgə heç nə tapa bilmədilər”.

Bu sözlər öz xoşbəxtliyini görməyib tapdalayanlar üçün misal idi, konkret heç kəsə ünvanlanmayıb. L.N.Tolstoy deyir ki

”Mən yalnız Allaha inananda xoşbəxt oluram”. Bu müdrik fikrin məntiqi davamı kimi demək olar ki, insan yalnız Allaha şükr edəndə xoşbəxtliyi və xoşbəxtliyini dərk edir, qanır ki, olduğu haldan daha beş-betər, aşağı səviyyədə ola bilərdi. Şükranlıq hissini əldən verməməyin ən əlverişli yolu özünün özündən daha aşağı səviyyədə yaşayanlarla müqayisə etmək, özündən yuxarı səviyyədə olanlarınsa səndə olmayan çatışmazlıqlarını görməkdir. Həmişə deyirlər ki, xoşbəxtlər bədbəxtlərdən azdır, amma bəlkə də xoşbətlər daha çoxdur, fəqət onlar öz xoşbəxtliklərini dərk etmədikləri və Allaha şükr edə bilmədikləri üçün bədbəxtlərlə eyni sırada dayanırlar.

Bu esseni yazandan sonra F.M.Dostoyevskinin bir fikrini oxudum: "Bir çox insan xoşbəxt olduğunu bilmədiyi üçün bədbəxtdir." Baxdım ki, mənim sətirlərə sığışdıra bilmədiyim bu esseni o hələ iki əsr əvvəl bir cümləylə yazıb. Lakin sevindim həm də, deməli, məni narahat edən hadisələr və hallar onu da düşündürüb, yaxud da əksinə.

**332. BU DA BELƏ...**

Tərcümə elə bir şeydir ki, tərcüməçi ilə müəllifi bir-birinə qohum edir. Müəlliflə tərcüməçi arasında başlanan ruhi qohumluq, sonradan üslub qohumluğuna çevrilir. Və tərcüməçi əgər yaradıcı adamdırsa, o daha çox əziyyət çəkir. Çünki tərcümə edərkən bir şeyi 5-10 dəfə oxuyursan və özündə hiss etmədən oxşarlıq yaranır. Rus gözəli, nakam Marina Svetayevanın tərcüməçisi şair Çingiz Əlioğlunun şeirlərində də maraqlı oxşarlıq var.

Sağ çiynimdə bu mələk
Göyərçin sabahımdır
Sol çiynimdə o hənək.
Bayquş gecə ahımdır.

**Marina Svetayeva**

Sağ çiynimdə boz şeytan
Solda mələk əyləşib.
O mələklə o şeytan
Min illərdir əlləşir.

**Çingiz Əlioğlu**

## 333. CƏFƏR CABBARLININ QORXUSU

Bir neçə ay əvvəl Cəfər Cabbarlının heykəlinin yanından keçirdim. Kənd yerlərində bu vədəyə çıraq sönən vaxt deyirlər. Dişsiz və qaraşın bir xanım bir ayaq-bir ayaq yaxınlaşıb dedi:– "Yaxşı qəşəng qızlar var. Yerin var, yoxsa tapım." Başa düşdüm ki, bu dişsiz, qadın alveri ilə məşğuldu. Onu da başa düşdüm ki, C. Cabbarlı qadın satılan mağaza deyil... Özümüz boyda TƏƏSSÜF... "Yox" deyib, getdim. Bir iki saat sonra ağlım başıma gələndən sonra fikirləşdim ki, C. Cabbarlı pula aldananlardan, qadınlardan, vəfasızlıqdan yazıb. Görəsən bu qadınlar həmin obrazların qohumu deyillər ki? Nəvələri, nəticələri, kötükçələri, nələri və nələri... Bir şeyə inandım ki, heç nə təsadüfü olmur. Bu qadınların məhz C.Cabbarlının heykəlinin yanında toplaşmaları da təsadüf deyil. Təsadüf olmur, sadəcə Allah istəyir və olur.

C. Cabbarlı əsərlərində kişilər vəfasız olublar ("Aslan və Fərhad" hekayəsində və "Solğun çiçəklər" dramında) . Qorxdum ki, həmin qadınlara yanaşsam, onlar yox, mən əxlaqsız sayıla bilərəm. Nədənsə yazıçılar əxlaqsız qadınları müdafiə ediblər Məsələn F.M. Dostoyevski, G.D.Mopassan. L.N. Tolstoy. Sizcə bu təsadüfdürmü?

## 334. SÖZ SÖZƏ ÇEVRİLMƏYƏNDƏ

Bəzən belə də olur: içimə narahatlıq, düşüncələrimə nigarançılıq gətirən cümlələri yazmaq istəyəndə sətirlər adiləşir, ovqatım əvvəlki olmur. Yaşantı bir cümlədəcə bitir. Məsələn, aşağıda yazdığım hər cümlə taleyimdə ayrı-ayrı izlər salmış ağrıların, sonsuz hüznlərin işıqları, işartılarıdır. O cümlələrin məntiqini açmaq üçün bir esse, məqalə yazmaq istəmişəm ki, daxilən rahatlaşım. Amma bir cümlədən sonra yaza bilməmişəm, ya o cümlələr məni tükəndirib, ya da o cümlədə içimi o qədər yaxşı ifadə eləmişəm ki, mənə bəs edib:

- Qan bədənimdə illərdi eyni cümləni təkrarlayır. Yorulmur. Bezmir.
- Bizim hamımızın fərqliliyimiz elə eyniyyətdi.
- Məncə, qəfil heç nə olmur, sadəcə biz qəfil fərqinə varırıq.
- Ölməyini görmək istəyirsənsə, ölmə.
- Var gücümlə darıxıram...
- Dəniz qayığın ömrüdü.
- Sözlər ürəyimizdə dünya boydadı, vərəqdə hərf boyda.
- Mənə başa salın görüm kədər insanların oğul balasıdır, yoxsa qız?
- Romantizim ən xoşbəxtlərlə ən bədbəxtlərin ədəbi cərəyanıdır.
- Klassika gözəl olsa da, köhnədir.
- Elə bil sevgiyə düyün düşmüşəm.

## 335. HESSE VƏ ESSE

“Nobel” mükafatı alan yazarlardan Herman Hesse və Qabriel Qarsiya Markes günümüzədək ən çox oxunan yazarlar kimi qeyd olunur. Əgər Q.Q.Markesi Cənubi Amerikada və İngiltərədə çox sevirlərsə, Hesseni də Amerikada gənclər, xüsusən reperlər çox bəyənir, onu həm də filosof kimi də oxuyurlar. Ancaq Hesseni

Markesdən ayrı tutan ümdə cəhət Hessenin romanı esse kimi nəql etməsidir. Necə?

## "Yalquzaq" romanı

"Yalquzaq" romanını xatırlayırsınız yəqin. Roman Harri Hallerin, əsəri nəql edənin evinə kirayə gəlməsi, adamayovuşmazlığı nəzərə çatdırılsa da, əsərdə yetkin sujet sayılacaq informativ elementlər görmək olmur. Sonra Hallerin qeydlərinə patoloji fantaziya kimi yanaşmayan müəllif əsərə daxil olur. H.Hesse tək-tük yazarlardandır ki, obrazları ağıl cəhətdən bir-birinə bənzəyirlər, fəqət bir-birini anlamırlar. Əsərin içində sanki bir neçə Hesse var və obrazlara parçalanaraq fikirlərini təlqin edir. XIX və XX əsr rus ədəbiyyatında bu struktur tamam fərqlidir, belə ki, həmin dövrün yazarlarının əsərlərində hər obraz ümumi sujeti şaxələyir, nəticədə əsərdə "müəllif çoxluğu" yaranır. "Yalquzaq" romanında isə Hesse sanki uzun bir monoloqu ara-bir informativ elementlərlə genişləndirərək "kənar informasiya" verir, beləliklə də, sujet yaranır. Ümumən, bir-iki ənənəvi sujeti saymasaq, roman uzun bir esseni xatırladır.

Haller gedir və onun əlyazması qalır, mətnlərdən onun yaşam gündəliyini öyrənmək mümkünləşir və bununla ümumi sujet qurulur. "Harri Hallarin qeydləri" "məmur ədəbiyyat" stilistikası ilə yazılıb və birinci hissədə əgər Harrinin xarici görünüşü nəzərə çatdırılırdısa, bu bölümdə isə onun yaşam tərzi faş olunur. Məlum olur ki, yalquzaq əslində "seçilmiş adam"dır, tərki-dünyadır, onun yeganə vəzifəsi dünyanı dərk etməkdir. Necə ki, Kalvin kisləsində kalvinistlər insanları iki yerə bölürlər: seçilmiş və seçilməmiş adamlar, eləcə də Hesse bölür. O hesab edir ki, dünyanı dərkedənlər və dərk etməyənlər var. Bu hissə gündəlik kimi oxunsa da, əslində esse xarakteri daşıyır. Sujetin ardı olaraq Harriyə gecə kimsə taleyinin traktatını verir və hadisələr davam edir. Hesse sujetin davamlılığına yox, essenin vahidliyinə əsasən mətni qurur. Nəticə: roman Harrinin sənət,

fəlsəfə, ölməzlik haqqında olan essesi, sujet isə sadəcə onun tale xronologiyasıdır.

"Yalquzaq haqqında traktat". Bu hissədə uzun bir esse başlayır. Hessenin bəşəriyyət, qadın, dahilik haqqındakı konseptual qənaətləri bir fonda birləşir. O, bəzi məqamlarda yalquzağın ramedilməzliyini və ikilitəbiətliliyini açıqlayır. Ruhi ikiləşmə dünya ədəbiyyatında olduqca narahatedici mövzularadan sayılır, bu cür ikiləşməyə F.M.Dostoyevskinin "Oxşarlar" romanında rast gəlinir, özüylə rastlaşan Qolyadkin çaşır, yaxud Oskar Uayldın "Dorian Qreyin portreti" əsərində insanın portreti məsələsi, eləcə də, Orxan Pamukun "Bəyaz Qala" romanında Xoca və əsir münasibətləri... Görünür, bu cür ikiləşmə həmin yazarlarda da olub, lakin bu problemi H.Hesse qədər qabarıq əks etdirən olmayıb. 1927-ci ildə sonata formasında yazılan "Yalquzaq" romanı dağıdıcılıqla sülhün, təmiz ruhla şəhvətin eyni canda - ikiləşməsini bəyan edir və Hesse sonda Harrini qatil edərək sübut edir ki, ən ağıllı insan belə düşdüyü situasiyada dəyişir. Bu problemə "Kunulp" povestində də toxunaraq yazır: "Düşüncələrin, fikirləşməyin heç dəyəri yoxdu. Onsuz da, insan düşündüyünü etmir. Əslində atdığı bütün addımları ürəyindən necə gəlirsə elə atır".

Hesse öz içindəki dərki yazaraq, yalquzağın adı ilə psixologiyasını açıqlayır. "Mənalı həyatı yalnız öz "mən"ini qurban verməklə qazanmaq olar. Axı həyat həvəsi çoxdan sönmüş adama dünyanın heç bir təbibi əlac edə bilməz". Bu tipli şizofrenik fikirlərə Yapon ədəbiyyatının intihar edən yazarlarından Akutaqavanın ömrünün son illərində yazdığı "Dişli çarxlar" əsərində də rast gəlmək olur. "Yalquzaq" əsərindəki bu fikirləri Hessenin həyat tərzi ilə əlaqələndirərək təbii hesab etmək olar. Belə ki, Hesse də ikinci dünya müharibəsi vaxtı antifaşistlərin təzyiqinə məruz qalıb və ailə həyatı da problemli olub, Almaniyadan İsveçrəyə köçəndən sonra vətəni unuda bilməyib, müharibədəki əsirlərə kömək etmək üçün xeyli səy göstərib və stress keçirib, Yunqun tələbəsi Lənq ona psixoanalitik

müalicə edib. Romanın qəhrəmanı Harri də təsadüfü deyil ki, bir neçə dəfə intihar etmək istəyir.

Hesse Ziqmund Freydin nəzəriyyəsini oxuyandan sonra onun şüuraltı haqqındakı araşdırmalarına heyrətlənir, "Yalquzaq" və "Kunulp" əsərlərində görünən guşənişinlik, uyuşmazlıq bundan yaranır. Onun ən güclü əsəri "Nobel" mükafatına layiq görülən "Muncuqlarla oyun" əsəridirsə, özünü, "mən"ini oxucuya ən səmimi danışan əsəri "Yalquzaq"dır. Hesse bu əsər haqqında yazır: "Zamanın bütlərinin əvəzinə bir inanc yaratmaq lazımdır. Mən əvvəlcədən bunu etməyə çalışmışam". "Yalquzaq"dakı Mortsart obrazı, "Sehirli və Ölümsüzlər" teatrının mənası da məhz budur". Başqa bir amili də nəzərdən qaçırmaq olmaz: O həm də Şərq, xüsusən, hind fəlsəfəsi ilə əlaqədar inanclarından da yaradıclığında lazımınca yaralanırdı. Bu isə onun yaradıclığında dini elementlərin artmasını reallaşdırdı. Hesse hesab edirdi ki, müasir insanın ən böyük daxili böhranı dinlə bağlıdır, ona görə sənətin və sənət adamının ən böyük vəzifəsi "hər şeyin arxasındakı Tanrını görməkdir". Təsadüfü deyil ki, "Kunulp" əsərində də insanlardan uzaqlaşan Kunulp ən səmimi söhbətini sonda Tanrıyla edir.

## "Çətin yol" "Meşə adamı" hekayələri

Psixoanalizə vurğunluğundan sonra Hessenin hekayə və romanlarının, ümumilikdə bütün yaradıcılığını "Yalquzaq" adlandırmağa dəyər. Çünki Hesse müxtəlif sujetləri ayrı-ayrı mövzularda yazsa da, ümumi yaradıcılığında insanayovuşmazlıq, hər şeydən qaçmaq cəhdi bütün əsərlərində hiss olunur. Ancaq yaradıcılığının ilkin dövründə Hesse daha optimist əsərlər yazıb. Məsələn, "Çətin yol" hekayəsində uçurmun sonsuzluq olduğunu bilə-bilə bir-birinə dayaq olan və məqsədinə çatan, Amerika ədəbiyyatına xas olan əzmkarlıq, nikbinlik nəzərə çarpır. İyirmi beş yaşında ilk şeirini yazan Hesse bu hekayəni 1916-cı ildə, yəni

39 yaşında yazıb. ”Yalquzaq” əsərindən sonra demək olar ki, onun yaradıclığında ciddi mənada optimist əsər tapmaq olmur.

“Meşə adamı” hekayəsi isə Birinci Dünya Müharibəsi vaxtı (1914) yazılıb. Hekayədə ümumən qədim vaxtlarda meşədə yaşayan insanlardan danışılsa da, mətnaltı məna dünyanı parçalayıb öz dünyasını qurmaq istəyənlər haqqındadır. Bu hekayədə də əzmkar insanın - Kubunun həyatından danışılır və o meşə dünyasındakı ədalətsiz aləmdən qaçıb öz dünyasını yaradır. Azadlığın bəxş etdiyi xoşbəxtliklə yaşayır. Ümidli və nikbin təsir bağışlayan bu hekayədə baş qəhrəman Kubuya görə azadlığın olmadığı yer vətən olsa da, cəhənnəmdir. Nəzərə almaq lazımdır ki, H.Hessedə təxminən bu vaxtlar Almaniyadan İsveçrəyə köçüb.

## “Knulp” povesti

1)Povestin qəhrəmanı Knulp hər yeri gəzir, müxtəlif adamların evində qalır, nəhayət, dostugilə gəlir. Kunulp qonşu qızı Barbella ilə bir günlük  gəzintidən sonra şəhərdən ayrılır.

2) “Sonra başqa bir dostunun yanına gedir, ona da yovuşa bilmir və dostu yuxudan ayılanda görür ki Kunulp yoxdur.

3) Kunulp həkim dostuna rast gəlir, onun evində müalicə olunur, sonra vətəninə gedir. Üçüncü adamı da atır.

Göründüyü kimi Kunulp heç bir yerdə qərar tuta bilmir. Ona təklif olunan bütün evlərdə qalır, bütün şeyləri alır. Çünki Kunulp düşünür ki, dünyadakı hər şey və hər yer onundur və həm də onun deyil. Bütün insanlar Kunulpa bir şeyi irad tuturlar: Niyə evlənmədin və normal ailə həyatın, isti ocağın yoxdur? Dostların yanıda heyfislənən Kunulp əslində bəxtindən narazı deyil, çünki bilir ki, hamı kimi o da öz taleyini yaşayır. Sonda bütün insanlardan sonra Tanrıyla üzləşir və söhbət edir. Kunulp üçün bu təəccüblü hal deyil, çünki o danışmağa adam tapmayanda qəlbində tanrı ilə çox danışıb. Tanrı ona deyir ki, sənin ailəndə olsaydı, yenə belə tərki-dünya olacaqdın, ona görə də mən “səni olduğundan başqa tərzdə yaşatmadım”. Yuxarıda qeyd olunan

tanrıyla söhbət bir başa Şərq fəlsəfi görüşünə xas olan cəhətdir ki, insan olmayan yerdə də Tanrı var. Bu mənada insan tək deyil. Ona görə hamının içində tək qalan Kunulp Tanrıya sığınır.

## “Dünya tarixi” essesi

Hesse antifaşist olub, ölkəsindən ayrılması sonra təqib olunması onda müharibəyə qarşı dərin nifrət oyadıb. Hesse sual edirdi ki, sonunun ölüm olduğunu bilən insanlar niyə bir-birini öldürür? Hər xalq öz tarixini bəh-bəhlə öz vətəndaşlarına öyrədir, belə olan halda əsl tarix kölgədə qalır. Bu essedə dünya tarixi, qanlı döyüşlər haqqında uşaqvaxtki düşüncələrinin dəyişdiyini belə yazır: “Güman ki, bizə zorla yedirtdikləri dünya tarixi elə beləcə də olub - bu tarix bizi alçaltmaq və qorxutmaq üçün böyüklərin uydurmalarıdır”.

Böyük epoxa dövrü adlanan müharibə illərinin ona böyük görünməməsini, bunun sadəcə iyrənc qan-qadadan ibarət olduğunu bildirir. Əslində çoxları bunu ona görə başa düşmürlər ki, özlərini unudulmaz tarixin ağuşuna buraxıblar, bu qəhrəmanlıq hissindən daha çox kütlənin inamıdır.

Əgər əvvəlki əsrlərdə ədəbiyyatda müharibə mövzuları xalqı döyüşə səsləyirdisə, XIX və XX əsrlərdə daha çox sülhə çağırır. Müharibənin daha çox dərəcədə şairlərə təsir etdiyini yazan Hesse bildirir ki, adi insanlar müharibə dəhşətini, ölümü yalnız müharibə vaxtı görürlərsə, yazarlar bunu həmişə görür və ona görə təccüblənmirlər. “Bizim üçün fərqi yoxdur, ölkədə nə olacaq – demokratiya, yoxsa monarxiya, federasiya yaxud konfederasiya, bizi “nə” sualı deyil, “necə” sualı maraqlandırır”.

Bu liberal düşüncələrinə görə Hesse müəyyən təqiblərə məruz qalıb. “Yalquzaq” romanında da dünya tarixinə olan münasibətini belə qeyd edir: ”Məktəbdə adını “Dünya tarixi” qoyub əzbərlətdikləri qəhrəmanlar, dahilər, böyük əməllər, böyük hisslər başdan ayağa yalandır. Zəmanə, dünya, pul, hakimiyyət də

xırdaların, dayazların olacaq, başqalarına - əsl insanlara isə heç nə qalmayacaq. Yalnız ölümdən başqa".

Amma bir həqiqət var ki, "Dünya tarixi"nə biganə olsa da, dünya tarixi Hesseyə qarşı çox diqqətlidir və əsrlər sonra da diqqətli olacaq...

### 336. HƏMİŞƏ YOX, HƏRDƏN...

*Əgər bir gün ölüm vəziyyətinə düşsəm, köçürməkçün yəqin qan tapılmayacaq mənə. Çünki əksər insanlarla xasiyyətim tutmur. İnsanların əksəriyyəti mənim mənəvi "qan qrupuma" uyğun gəlmir. İnterneti tərbiyəsizlik sayan adamları, çox içki içmək "qabiliyyəti" ilə öyünən kişiləri (sən mənnən içəməzsən), yemək bişirmək qabiliyyəti ilə fəxr edən xanımları görəndə Mirzə Cəlilə rəhmət oxuyuram. Modern, postmodern Novruzəlilər və Fatmanisələr özləri də bilmədən "Ölü canlar" tamaşasını oynayırlar.*

Hərdən güldüyüm hadisələrlə yanaşı, güldüyüm adamlara da başıma gəlir. Məsələn, teleserial danışan sevgililər, ətir adları əzbərləyən, "Dostoyevskini tanıyırsan" deyəndə "adını deyəsən eşitmişəm" deyən qızlar, ruhsuz ulduzlar, quyruqsuz ilbizlər və s.

O qədər kişi ağlamaz deyiblər ki, kişi kimi ağlaya da bilmirik...

Kitablar insanlar haqqındadı, deməli, insanlar daha maraqlıdı. Lakin hərdən tam əksinə olur. Məsələn, Katya (L. Tolstoyun "Dirilmə" əsərinin baş qəhrəmanlarından biri) qədər təmiz olan bir əxlaqsız qadın görməmişəm hələ.

Əli Kərim demişkən, "Gördüm heç doğulmamış" qocalar çıxır adamın qarşısına, atasının taleyini «kopiya eləmiş» balacalar dəyir gözə, o anda bircə EH...deyib keçirsən.

Çox istəyərdim ki, ürəyimdə diktofon olsun, düşündüklərimi unutmayım. Söz, aşiq olmuş dul qadın qədər qısqancdı, ikinci şansını qıymır heç kəsə.

Hər gün evdən metroya, oradan universitetə qədər unutduğum sözləri basdırsaq, yəqin "ürək qəbiristanlığım" ölkədə ən böyük

qəbiristanlıq olardı.

Bizim Türkan Şoraylarımız və Kadir İnanırlarımızın sevgisi sevgi xatirinə sevgidi. Əl-ələ tutan insanlar bir-birinin ürəyində əriyə bilmirlər. Hər gecə, hər səhər və hər günorta.

Hərdən sevdiyim insanlarla tərs-mütənasib oluram. Və heç bir həyati düstur bizim həllimizi tapa bilmir. Amma bu həmişə yox, hərdən olur.

Hamı-hamını pisləyir, ancaq hamı-hamı haqqında məqalə yazır. Diqqətlə oxuyun, bu bir ədəbiyyat «qanunu»dur. İlk dəfə mən yazdım.

Hər il şəhidlər haqqında anaları danışır, qadınları yox. Qadınları danışanda da hiss eləyirsən ki, danışmaq istəyirlər, ancaq utanırlar. Ümumi tərəflərdən söz açırlar. Danışırlar, amma danışmırlar. Düşündüklərini dilə gətirə bilmirlər. Yüz dəfə ürəyində yana-yana düşündüyünü bir dəfə dilinin dəyirmanında üyüdə bilmirlər. Çünki bəzi sözlər səslənmir, sadəcə düşünülür. Həm də ona görə danışa bilmirlər ki, Salam Sarvan demişkən, "Sənə deyiləsi deyil, sənə deyiləsi sözüm". Lakin bu həmişə yox, hərdən olur.

Kasıb kişilərin arvadları hər axşam ərləri ilə SİFƏTİN MÜQAYİSƏ DƏRƏCƏSİNDƏ danışırlar. Qonşunun əri səndən daha bacarıqlıdı, maşın alıb. Ancaq o sarı evdə yaşayanlar daha da bacarıqlıdırlar, bağ evləri var.

Yaxşı qadın ərinin dərdini axşam çəkdiyi siqaretlərinin sayından bilir.

Hərdən bu ölkədən, bu şəhərdən, bu rayondan, bu kənddən getmək istəyirəm. Amma Robinzon Kruzo qoymur. Deyir ki, məni yalnız bırak.

Teatrın qarşısında iyirmi ildir günəbaxan satan qadın hələ teatra girməyib. Moykalarda avtomobil yuyanların maşını yoxdur. Doğrudan da, həyat çox qəribədi, əlimizin içindəkilər çox vaxt özümüzün olmur.

Hər gün qoca nənəsini həyətə düşürdən qız, nənəsinin ölməyini istəmir, sağalmağına da ümidi yoxdur. Onun çarəsizliyini sözlə

dilə gətirmək lazımdır.

Yuxuda sevdiyi qızı görən oğlan daha yuxusunu nə düzünə, nə də tərsinə yoza bilmir. Bilir ki, olan olub, keçən keçib, “alan-alıb, allanıb, satan satıb, pullanıb”. Uduzan ancaq udanın pullarını saya bilər, onu da aşkarca yox, ürəyində.

Gəlin sizə iyirmi il ərzində dəyişməyən insanlardan, rayonumuzun ən ucqar kəndindən söhbət açım.

Orda insanlar səhərdən axşama qədər işləyirlər, gec yatıb, tez qalxırlar. Onlara baxanda düşünürəm ki, Allah işi, əməyi insanlar ölümü düşünməsinlər deyə yaradıb. İllərdir insanlar eyni tərzdə yaşayırlar, illərdir ki, atalar-oğullar və oğullar-atalar eyni cür yaşayıb, eyni cür ölürlər.

Gəl sənə, orda gördüyüm bir məhəbbət macərasını danışım. Arxdan camış çıxaran ayaqları lilli oğlan, üst-başı tozlu halda sevdiyi qızgilin qapısının yanından keçəndə saçını tumarlayırdı ki, gözəl görünsün.

Burda borclar da bir qədər fərqlidi. Toyda oynamaq da, yasda ağlamaq da borc sayılır. Məsələn, o mənim anamı ağlamışdı, mən onun qardaşını.

Burda yerə baxanlar tərbiyəli, sənə baxanlar tərbiyəsiz sayılır. Qızları bu yolla yoxlayır oğlanlar.

Burda inkubator cücələri “postmodernizm”, toyuğun zəhmətinin bəhrəsi “klassika” sayılır.

Bəzilərinin başları ilə bədənləri tərs-mütənasibdir. Ayaqları çılpaq gəzməkdən böyük, başları az düşünməkdən balacadır.

Burda insanlar ağac kölgəsində gizlənirlər, hətta Nabranı xarici ölkə sayanlar da var. Bura həyatın dibidi, dostum, dibi.

Bura gələndə Qoqolu və Mirzə Cəlili xatırlayıram, özgə heç kəsi yox.

Burda hər qayınata otağa girəndə gəlin ürəksiz, etika xətrinə ayağa qalxır. Səmimiyyəti hörmətə görə (guya) itirənlər, özləri də bilmədən eyni evdə “müəllim-müəllim” oynayırlar bir-biriləri ilə.

Burda insanların rahatlığı yoxdur, lakin çox rahatdırlar. Orda Dostoyevski, Çexov, Mopassan doğulmayıb hələ.

Burda qloballaşma Allah kimidir. Görmürsən, amma varlığına inanırsan.

Burda «Ya Allah» deyib lotoreya alan adamlar axşam məyus olanda özəl bir jestlə satanı və lotoreyanı, hətta bu oyunu yaradanı səmimiyyətlə söyürlər. Səhər alanda dedikləri «Ya Allah» sözü yaddan çıxır. Bu söyüşün özünü yox, az-çox səmimiyyətini sevirəm.

Burdakı insanlar saatlarını çoxdan tullayıblar. Zaman anlayışı ölüb onlar üçün. Hər səhər iş, hər axşam yuxu. Sonra da ölüm gəlir. Ailənin arxasına xoş sözlər söylənilir. Zəhmətkeş idi, qohumcanlı adam idi.

*İnsanı ancaq özü tamamlayar.*
*İçində başqa, çölündə başqasan,*
*Əskiyin artığına əlbət çatacaq.*

Bu şeiri Attila İlhan yazıb. Özü ilə tək qalmağı, dərdləşməyi sevən adamlara. Unutmayın ki, çoxluğun yanında, kütlənin içində də insan təkdir. Sənə yalnız sən lazımsan.

## 337. ƏLLƏRİ SARALAN ADAM

Natiq Məmmədlinin Əlibala Hacızadə ilə çəkdirdiyi şəkilə baxanda bütün varlığımı dəhşət bürüdü. Əlibala Hacızadənin ömrünün əvvəli ilə axırı bir-birindən qütb dərəcəsində fərqli olub. Və o şəkildəki nimdaş paltarlı qocaya baxanda adam yaxşı başa düşür ki, Sovet imperiyası həqiqətən də dağılıb. İllər əvvəl qazandığı o nəhəng şöhrət heç-puç olub gedib. Əlləri köhnə soba borusu kimi saralmış bu ixtiyar yazıçı, kəmərini az qalır ki, belinə iki dəfə dolasın. Faciədi...

## 338 AVROPANIN YOLU – ŞƏRQ

Türkiyənin "Nobel" mükafatçısı Orxan Pamuk "Yeni Həyat" romanında Şərq və Avropayla bağlı maraqlı bir cəhəti vurğulayır: "Şahmat. Sözün farsca "şah" ilə ölmək sözünün ərəbcəsi "mate"-dən yaradılmış bir Avropa mərəzi olduğunu açıqladı. Qərbə şahmatı biz öyrətmişik, dünyavi bir şeydir, döyüşü xatırladır, bəyaz ordu ilə qaranın, içimizdəki yaxşı ilə pisin ruhi müharibəsidir. Onlar neyləyib? Vəzirimizi kraliça, filimizi yepiskop ediblər". Göründüyü kimi Qərb sivilizasiyasına, mədəniyyətinə Şərq daim təsir edib.

Şahmat oyununda xanaların ağ və qara olmağı heç də rəmzi xarakter daşımır. Bu, yaxşıyla-pisin, işıqla-zülmətin və əbədi qarşıdurma olan xeyirlə-şərin mübarizəsidir. Nə üçün insanlar bütün oyunlardan daha çox şahmat oynayarkən düşünürlər? Ona görə ki, burda bağışlanmamaq qorxusu var. Əgər ata ilə oğul şahmat oynayırsa, deməli, bütün yaxınlıqlar şərtiləşir, onlar artıq rəqibdirlər. Öldürənlə-ölənin mübarizəsidir şahmat oyunu. "Mat" olmaq ölkənin – yəni idraki məkanın süqutudur. Oyunun ən maraqlı cəhəti də odur ki, istər ağ, istərsə də qara xanalarda oynayanlar uda bilər, yəni ağ təkcə xeyirxahlıq, qara rəhimsizliyin simvolu kimi məhdudlaşmır. Necə ki, savadsız hökmdar öz ölkəsini nəhayətdə məhv edir, eləcə də zəif oynayan şahmatçı məğlubiyyətə düçardır. Yaxud ölkəni idarə edən vəzifəli şəxslər düzgün yerləşdirilməyəndə ölkə gün-gündən zəiflədiyi kimi, şahmatda da fiqurların düzgün yerləşdirilməməyi oyunun struktrunu zəiflədir. Şahmaz siyasətdir...

## 339. HESSE SƏRGƏRDANLIĞI

Herman Hessenin "Yalquzaq" romanını, "Knulp" və "Siddiharha" povestlərini oxuyanda məndə belə bir fikir oyanmışdı: "Yəni bu həyatda doğma olan bircə adam da yoxdu?" Sonra həqiqətən də razılaşmalı olmuşdum ki, içimizdəki o gözəgörünməz "mən"dən başqa, bizim dilimizi heç kəs tapa

bilmir. Doğmalıq yalnız öz aləmini hamınınkılaşdıranlar üçündür. H.Hesse düşüncə baxımından, ruhi anlamda mənim brahmanımdır.

“Yalquzaq” və “Knulp” əsərində olduğu kimi “Siddhartha” povestində də əsas qəhrəman “qaçır”: “Yalquzaq” əsərində mühitdən, Herminadan, ev sahibəsindən, “Knulp” povestində dostundan, şəhərdən, “Siddihartha” povestində isə Kəmalədən, Qovidinadan, qayıqçıdan, brahmadan... Bütün qəhrəmanlar axırda gəlib öz “mən”ində rahatlıq tapır. Hesseyə görə dünyada “mən”imizdən qayğıkeş heç kəs yoxdur, o, hamı bizi tərk edəndə belə yanımızda olur. “Mən”imiz bizim ədalətimiz, içimizdəki gözəgörünməz – Tanrıdır. Ruh simmetriyası “mən”imizin ölçülərinə uyğun gəlir. Sanki o bizimlə eynixasiyyətlidir. Ona görə biz özümüzlə daha asan yola gedirik. Həm də əksinə olaraq, eynixasiyyətli insanlar dalaşanda bir-birlərini daha kəskin tənqid etdikləri kimi, eynixasiyyətli “mən”imizlə yola getməyəndə bu hal daha dəhşətli olur. Bu anlamda Hesse mənim “bəstələnmiş ruh”umun ifaçısıdır.

Gələcək zaman doğulmayıb, keçmiş zamansa ölüb. Yalnız indi var: Əgər indi evimdəyəmsə “evim var”, deməli, əgər küçədəyəmsə evim “yoxdur”. Biz olduğumuz şeylərdə öz varlığımızı yaradırıq. İndiki zamanın iki qolu var: bir keçmiş zamana, bir də gələcəyə uzanan qol. Ancaq indiki zamanı “fizologiyası” anormaldır, çünki onu keçmiş zamana uzanan qolu daha uzundur. İndiki zamanın keçmişə uzanan qolu realdır: gələcəyə uzanan qolu isə irrealdır, absurddur. Əslində “həyat absurddur” ideyası, gələcək absurddur deməkdir. Axı keçmiş ölüb, indini isə qiymətləndirə bilmirik, çünki İNDİ zaman axını içərisindədir. İNDİ dənizindəyik və indi dənizində, suyun isti, yaxud soyuq olduğunu bilə-bilmirik, indiki zamandan - dənizdən çıxandan sonra (keçmişə, yaxud gələcəyə) bu temperaturu hiss edirik. Bu mənada yalnız İNDİ var:

“Haçansa çayda vaxtın mövcud olmadığını sənə deyiblərmi? – Bir dəfə qayıqçıdan soruşdu:

Hə, Siddhartha, Vasudey gülümsündü, demək istəyirsən ki, yəni çay eyni zamanda hər yerdədir, öz mənsəbində, şəlalədə, keçiddə, sıldırımda, dənizdə, dağdadır və onun üçün bu andan, indidən başqa heç nə mövcud deyil.

Elə bunu demək istəyirdim, – Siddhartha təsdiqlədi, bu həqiqəti dərk edəndə həyatıma yenidən nəzər saldım və gördüm ki, o da çay kimidir. Balaca Siddhartha böyük və qoca Siddihartadan mövcud olmayan kölgə ilə ayrılıb. Və Siddharthanın dünyaya əvvəlki gəlişləri, keçmişi, ölümü, Brahmana qayıdışı isə gələcək deyil. Heç nə olmayıb, heç nə olmayacaq, hər şey var və indi mövcuddur".

P.S. Posmodernizim də elə bunu deyir: Yazmaq təkrarlamaqdan ibarətdir: mövzuları və yazarları. Düşünəndə baş sındırdığımız mövzu təzə görünür, yazandasa təkrarlanır...

## 340. DÜNYAYA BAXMAĞA GƏLDİK

Nə özümü insana edə bildim, nə yadı,
Dünyaya baxmağa gəldim.
Vaqif Səmədoğlu

Vaqif Səmədoğlunun bu misrası tamaşaçılığı anlatdı mənə. Sanki bildiklərimi, yaxşı anladıqlarımı yenidən yaşayıram, başa düşürəm...

İnsan hər hansı bir hadisəni yaşayır, öz keçmişinə ötürür, zamanına qovur... çıxara bilmir ömründən...

Baxaq: Hadisəni icra edən birinci tamaşaçıdır. Baxa-baxa icra edir.

İkinci əşya öz tarixini, yerini, ölçüsünü və s. dəyişir, ikinci tamaşaçının öz-özünə olan nəzəri.

... üçüncü kənar göz, kənar nəzərdir. Bu bir də ola bilər, min də. Burda bir kütləvilik yaranır. Təbii ki, kənar müşahidələrin qənaətləri fərqli olur, ancaq adı eyni: kənar göz. Hətta hadisəni törədən, icra edən də bir müddət sonra, iş qurtaranda yaratdığına

kənar gözlə baxır, kütləyə qoşulur. Dünya daim bu kənar gözün müşahidələrini danışır, diqtə edir. Ona görə insanlar dəyişdirdiyinə, dəyişdirməyə çalışdığı şeyə, dəyişdirilmişə kənar gözlə baxır. Bu insanın aliliyinin acizliyidir. Yəni mövcudu dəyişdirmək olmur. Biz yalnız dünyaya baxmağa gəlmişik. Bizim dəyişdirmək istəyimiz sadəcə adi cəhdlərdir...

**Sevmədiyin qadınla**

Sevmədiyin qadınla bir damın altında yaşamaq,
nə onu aldatmaqdı, nə də özünü.
sevmədiyin qadınla bir damın altında yaşamaq,
sevgidə zibillik kimi eşələnməkdi,
yemirsən, amma nəsə axtarırsan orda.
Sevmədiyin qadınla bir damın altında yaşayırsansa,
deməli, taleyindən Həmzə Qır atı qaçırıb.
Sevmədiyin qadınla bir damın altında yaşayırsansa,

axşamlar evinin qapısı tabut ağzı kimi açırsan.
Və hələ taleyin tərs üzü kimi uşaqlar da varsa,
Deməli, içindəki bütün sevincləri yağmalayıblar.
Sevmədiyin qadınla yaşadığı evə gəlmir kişi,
Öyrəşdiyi dərdlərin tüstüsünə gəlir hər axşam.
Sevmədiyin qadınının açdığı süfrədə limonadlar da şərab kimidi.
Kişi öz bədbəxtliyindən sərxoş olur.
Sevmədiyin qadınla bir damın altında yaşamaq püşkünə düşübsə,
Evdə uşaqlar,
Həyətdə ağaclar.
Dibçəkdə güllər də
Gec böyüyər.
Bütün anlar zaman çevrilər.
Sevmədiyin qadınla bir damın altında yaşayırsansa.
Rus bazarlarındakı saxta çeçen dolları kimi olarsan
əldən-ələ, dildən-dilə düşə-düşə xərclənərsən.
Sevmədiyin qadınla bir damın altında yaşayırsansa,
Sənə yenidən doğulmaqdan özgə çarə görmürəm.

**Dözmək üçün məşq**

Səsini eşitmək azan dinləmək qədər xoş,
Yoxluğun tabut qədər boş,
Baxışların on iki ballıq zəlzələ,
Hər baxanda məni darmadağın edirsən.

Xoşbəxtlik yaxınlaşır bizə tısbağa sürətiylə,
Səbrinin əlindən tut, gözlə, gözlə, danışma.
Qoy sözlər iflas eləsin dodaqlarında.
Tək ayağı üstə dayanmışam dünyanın ucunda
Məni öldürmək də, yaşatmaq da sənin əlindədir.

**Yanvar ayının təqvimə düşməyən gecəsi**

Bu gecə yaralı at kimiyəm,
Məni öldürən məni xilas eləyəcək.
Gecə nə qədər qaranlıq içibsə,
Səhərə qədər bu zülmətdən ayılan deyil.
Bəs mən kiminlə danışım?
Buludan bir ulduzun saplağı
qırılıb yerə düşməyəcək ki,
danışaq, nələrisə bölüşək.
Yerdə olsa ovcumun içinə sığışar Ay,
Göydə özündən müştəbeh görüməyinə baxma.
Gecələr mənə öyrətdi ki,
adamlar itirməyə qorxduqları şeyləri itirirlər.
Məndən tez böyüdü tənhalığım.
Özümlə yedirtdim onu.
Bir də, bir şey öyrətdi mənə gecələr.
Anladım ki, sakit adamlar daha qəddar olurlar.

**Axillesin dabanı**

Bütün xəritələrdə sən olan yer
qeyd olunur qırmızı xətlə,
Bütün kompaslar sizə aparır, sizə.
İnsanlar ikiyə bölünür: özünə və özgəyə,
Gözlərin düşmən oxudur, ürəyim Axillesin dabanı,
“Hə”lər xoşuma gəlir, “yox”ların hər biri bir kirpi tikanı
Sən mənim zəif yerimi yaxşı bilirsən.

**Fəridin halları**

Şərab içəndə
Səni düşünəndə, hallanıram:
Fərid
Fərid-in

Fərid-ə
Fərid-i
Fərid-in
Fərid-də
Fərid-dən.
Axşam evə hansı gəlib çıxır, bilmirəm.
Sənə sevgi morfologiyasını öyrətmək çətin,
Ona görə dərd sözü ürəyimdə
həmişə cəm şəkilcisi qəbul edir.

**Veteran vəsiqəsi**

İnsan silahla yox, əcəllə ölürsə,
Qurda-quşa yem eləyin qılıncı, tüfəngi,
Axşamın qaranlığı işıqlandırırsa sizi,
Gündüzün günəşi sümüyünüzü qızdırırsa,
Deməli, yaradan yaralamır yaratdığını.

Küfürləri, pis sözləri ağzınızdan tüpürün.
Gözəl sözlər danışın və düşünün,
Göz görmədiyini sevməz, bilirəm.
Amma Allahı görməsək də sevirik,
Allah ona görə gözümüzə görünmür,
Sevgi ona görə mücərrədir, toxunulmaz əllə
Ağaclar suyla böyüyür, insanlar yaxşı əməllə.

İnqilab özünü məğlub edə bilmənlərin mubarizəsi,
Qışqırıq içimizdəki səslərin ən ərköyünü,
Məhəbbət cavanların veteran vəsiqəsidir,
Bir ömur boyu göstərə-göstərə keçəcəklər,
bütün dərdlərdən, qəmlərdən.

**Bilirsən axı**

Ümidlər qolları qandallı,
Xoşbəxtlik həpisdədirsə,
Gözlər zillənməyə öyrəncəli,
Kədər sevinclərə müdirdisə,
Axşamlar içkiyə müpdəla,
Gündüzlər sənsizliklərə təklənirəmsə,
Dərdimi açım deyə ürəyimi döyürlərsə adamlar,
Və yaşamım ölümə təşbehdisə,
Niyə soruşursan necəliyimi?
Heç kəsə görünməmək üçün,
Hamı yatandan sonra gəlir tənhalıq,
Hər gecə qonağımın kimliyini bilirsənsə,
Niyə soruşursan necəliyimi?\

**Bədxəbərin qeydləri**

Bayramlar başlamamışdan on gün əvvəl bitdikcə.
İlin bütün günləri aldatdı gününə çevrildikcə.
Qadınlar gündüzlər də gecə geyimi geyindikcə
Məni qınamayın, mən heç kəsdən heç nə gözləmirəm.

Hər il bizdən bir il çıxıldıqca,
Və dərdlərin Qır atında irəlilədikcə həyat,
Sandıqlarla qıfıllar dost, ümidlər açarlarla düşmən olduqca.
Mən heç kəsdən heç nə gözləmirəm.

Uzadılan əllər itələnirsə bu gün,
“dostluq” sözü lüğətə laxlayır, deməli.
Dərd sözü dərdlər sözüylə əvəzlənirsə hər gün.
Məndən inciməyin, mən heç kəsdən heç nə gözləmirəm,

Alqışlarla adamlar ucalır, fit səsiylə alçaldılırsa,
Deməli, insan alqışladığını fitə də basa bilər.

İnsan bu gün əzizlədiyi ümidlərini
sabah ürəyini tavanından asa da bilər.
Mən güvəncimdən arzularımın ayaqlarına yıxılmaq istəmirəm.
Məni qınamayın, deməyin ki, səndən sükut iyi gəlir.

**Dostlara xəbərdarlıq**

Romanı qazlar xilas elədi.
Əslində insan özü-özünü xilas eləməlidi.
Qaçmalıdı uzaqlara, getməlidi harasa...
Təzədən doğulmalıdı orda.
Təzədən tanımalıdı adamları.
Hər yara başqa yerə vurulduqca,
Unutmaq olmayacaq, olmayacaq...

Möcüzələr və dahilər
tarixdə qırlı ayaqqabılarla yeriyiblər.
İzləri silinmir ki, silinmir.
Tarix bizi uzun illər sonra yaddaş kitabçasına
Ancaq və ancaq
insanlar deyə yazacaqsa,
Deməli, adlarımız sadəcə bizi
çağırmaq üçün gəlir kara.

ağ və qara - günlərimiz rəngsiz televizordu.
Xət-xət, cizgili göstərir keçmişi
Bir gün telefonundakı nömrələrə bax.
Gör sənə vacib olan nə qədər adam var orda - həyatda.
Bütün insanlar istəmədikləri yerdə doğulublar.
Ona görə ürəyimizdə səyahət eşqi var.
Getməliyik... bu gün, sabah, ya da haçansa.

Romeya və Cülyetta - xəncər və eşq.

Məcnun və zəncir yoxdu həyatda.
Ona görə  adamlardan bezdikcə
kitablara yaxınlaşırıq.

Paytaxda limon satan qadının
uzanmış qabarlı əlini itələdikcə
harın, boyalı barmaqlar.
İsaları özünə çəkdikcə çarmıxlar,
Artacaq insan ölümləri.
Biz həmişə unuduruq ki, bizi döyüşə səsləyən, həm də
bizi ölümə aparandı.

Qırmızıya azadlıq deyibən,
qırmızıdakı qanı görmədikcə.
Adamlar baş kəsəcəklər manatlara görə.
Artacaq ölülərin ölümləri.
İnsanların sevgilərinin susuzluğundan
mərhəmətləri quruduqca...
Küçələrdə çoxalacaq küçə itləri.
Özünüzü qoruyun...

**Hələ güldən ölən eşitməmişəm**

*Vaqif Bayatlı Odərə*

Ot kimidi adamlar.
Hərəsi bir tərəfində bitir bu torpaq ömrümüzün.
Yaşıllaşanda birdən yaşıllaşıb,
Saralanda birdən saralırlar,
Otlar…
Sevəndə birdən sevib,
unudanda birdən unudurlar,
adamlar…
sanki sözü bir yerə qoyub otlar,

Birgə yaşıllaşır, birgə solurlar.
Sevənlər sevənə baxıb sevirlər,
Unudanlar unudana baxıb unudurlar.
Bu ot kimi adamaların içində,
Gülü gül kimi yox, alaq kimi üzən çox,
Nəfsinə ac adamlar, Allaha çatanda tox.
Gül olub boya atmaq olmur,
Gülə gəlmir adamlar.
Gülü sevənlər, görəsən, tikandan niyə qorxurlar?
Bircə sevən kəslər qorxmaz tikandan,
Şəhidlər gülləyə yox, gülə gələn adamlardı.
Ona görə əlləri açıq, sinələri qabağadı,
Gülün tikanı nədi ki, Allahın xoş çimdiyidi,
Hələ güldən ölən eşitməmişəm,
Güllər olan yerlər Allah evidi,

**Ağrı**

Məktəb illərində qolumuzun,
Universitet illərində başımızın,
Sonra ürəyimizin ağrısında yaşayır sevgi,
Bu da adlanır bir ömür boyu sevmək,
Deməli, insan bir ömür boyu sevmir,
Bir ömür boyu ağrıyır,
Sevgi ən gözəl ağrıdır.

**Sual işarələrinin cavabı**

Nəyə görə söyməyəsən  bu yuxusuz adamı?
Kimə görə salam verəsən tanımadığın qadına?
Nə qədər sual  qoyacaqsan cümlələrin belinə?
Xoşbəxtlik nə qədər gizlənib torpağın tərkinə?
Anasının qucağından əmziyin tullayacaq körpə,
yanından ötdüyü kor dilənçinin açılmış əlinə.

Düşəcək bütün suallar cümlələrin belindən.

**İt hürən tərəfə**

Təqvimin hər gününün üstünə "yeni həyat" yazın.
İşığı söndürün, düşməsin üşüyən ağacların üstünə.
Göstərməsin, ağacların kimsəsizliyini, üşüdüyünü.
Gecə nədiki guya, sən deyən də, qəribə deyil.
İlk insanının günümüzədək böyüyən kölgəsidi.

Hamı üşüyür: Ağac, adam, küçə, əynim.
Bircə külək üşümür, özü yıxılan ağlamaz.

Torpaq dünyanın sudan boşalmış hissəsidi.
Dünya ona görə boşluqdu, insanlar ona görə əliboş.
Bütün "bəlkə"lər  natamam, bütün "bəli"lər rəsmidi.
Bütün "yox"lar, məncə, daha  məntiqlidi,
Əgər yenidən başlamağa az da olsa ümid verirsə.

**Cızıq yerləri toxunuşdan xəbər verir**
**Elnaz Eyvazlıya**

Sən yuxusuz gecələrin adamısan.
Gözlərinin qapısından çox mürgü qovalımısan
Gecələr yatmamaq üçün.

Sən qadınların anlamadığı qədər qadınsan,
Kişilərin də sevə bilməyəcəyi qədər.
TƏNHALIĞI böyük hərflərlə yazmısan
həyatın lüğətinə
Axtaranda tez tapmaq üçün.

Sən ruhun alışa bilmir bədəninə,

Gözlərin faniliyi ehtiva edir.
Sən doğulmusan unutmamaq üçün.

Şairlərin duyğularının dərisi çox nazikdi,
Sevgilərin sərtliyilə müqayisədə.
Cızıq yerləri toxunuşdan xəbər vermirmi? Verir.
Sən də hamı kimi ümid axtarırsan.

Şeirlərindəki kədər hardan başlayırsa,
Sən orda bitirsən.
Sən başladığın yerdə bitməməlli adamsan.

**Buralar haqqında**

Burda yollar açıq, ürəklər bağlı,
Halalın başında papaqdır haram.
Burda şeirlərə qafiyə qandal.
Burda ümid doğur hər cinsdə adam.

Qəm yemə deyənlər burda qəm verir.
Günəşi təkləyib burda ulduzlar.
Mən burdan heç yana yol tanımıram.
Əzrail, gəl məni ölümə apar

**Ana**

Ah ay, ana gör nə günə düşmüşəm.
Qollarım da bədənimdən yan gedir.
Hamı məndən bir şey istəyir, ana.
əzrail də mən yazıqdan can güdür.

Bu dərdləri dərzi mənə biçibdi.
Ah nə yaman uzun gəlir əynimə.
Mənimki də belə alındı, ana.

Belə oldu, belə oldu neynim e...

Sağ əlimə güclə sıxır sol əlim.
Sağ əlimlə sol əlimi sıxıram.
Bircə mənim özümə gücüm çatır.
Sağ qolumla, sol qolumu yıxıram.

Başdan-başa kədərliyəm, kədərli.
Bədənimin hər yerində dərd dəri.
Ah, bircə yol, bircə adam, tapıla.
Ürəyimdən axtalaya dərdləri.

**Ən gözəl yuxum**

**Səbinə xanım üçün**

Harda qaldı gəlməyənlər,
hara getdi gedənlər?
Sənsiz qaldı məndən sonra,
Səni bütün sevənlər.

Yerdən, yurddan tapılarmı,
itirdiyim adamlar?
Gözlərində dayanmışam
gediləsi haram var.

Bu da sonuncusu imiş,
Hara gəlib çatdım mən?
Sən mənim ən gözəl yuxum
Gecən xeyrə, yatdım mən.

**“Heç kəs sevdiyinə çatmır dünyada”.**

Sənin ağlın donuq, gözün yuxludu.
Ağzından getməyib hələ süd dadı.

Sənin xoşbəxtliyin uşaq nağlıdı.
“Heç kəs sevdiyinə çatmır dünyada”.

İnsan arzusundan baş aça bilmir.
Daşı bağlayan bəxt, daş aça bilmir.
Elə hey sürünür nəyəsə sarı,
İnsan əl atdıqca göyə ucalır.
Qalxır, göyə qalxır, sevgi hasarı.
“Heç kəs sevdiyinə çatmır dünyada”.

Bitmir, vallah bitmir, dünyada heç nə.
Dünyada çox şeylər qalır yarımçıq.
Sevirsən? Sevirəm. Deyirik elə.
Sən də yalançısan, mən də yalançı.
“Heç kəs sevdiyinə çatmır dünyada”.

Hərə öz təkliyin böyüdür elə.
Heç kəs də, heç kəsə yovuşa bilmir.
Yaşayıb ayrıllıq, ölüb ayrıllıq.
Heç kəs də, heç kəsə qovuşa bilmir.
“Heç kəs sevdiyinə çatmır dünyada”.

Sən hələ bilmirsən nə var dünyada.
Əslinin düyməsi Kərəm yandırıb.
Dərdləri qızdırıb basıblar mənə.
Sağolun istisi hələ yandırır.
“Heç kəs sevdiyinə çatmır dünyada”.

# “Əlifba sırası” adlı kitabımda çap olumuş şeirlər

## Əlifba sırası

Dünyanın ən ədalətsiz sırası əlifba sırasıdı.
Bu sırada insanlar savadlarına, ağıllarına görə yox,
Adlarına görə sıralanırlar... Yəni, A-lara, B-lərə görə.
Dünyanın ən ədalətsiz yarışı gözəllik yarışıdı,
Qiymət qoyurlar qadın gözəlliyinə.
Qadınlara ən çirkin qiyməti burada verirlər,
Məhz, bədənlərinə görə.

## Sadə

Uşaqkən beşiyini bəzəmişdilər,
daha sonra yüyrüyünü,
sonra oyuncaq evini,
evlənərkən gəlin maşınını,
öləndə tabutunu,
məzar daşını.
İndiysə deyirlər ki,
Rəhmətlik sadə adamdı.

## Müharibə

Beşgünlük oğlu ölmüş ata
İnandı dünyanın beşgünlüyünə.
Bətnində ölmüş körpəsini ağlayan ana
Bənzədə bilmədi onu heç kəsə.
Ana yanmış övladını ovcuna yığanda
Onu yenidən qucağına aldı.
Atasız uşaq ağlamırdı.
Arsız deyildi o, sadəcə ölümü anlamırdı.
Əkilməyəcək torpağı belləyirdilər qəbirqazanlar.
Tabut arxasınca qaçanlar anlamırdılar ki,
Ölümün arxasınca qaçmaq olmur,
Qaçsan da, çatmaq olmur.
Kişi ağlamaz sözünü unutmuş ata,
Kişi kimi ağlayırdı.
Gəlin güllü paltar geyinməmişdi,
Ərinin qanı GÜl-GÜl hopmuşdu əyninə.
Saçını yolan qadınlar
Hörüklərini açmağı unutmuşdular.
Uşaqlar yerdən qəlpələri yığıb,
Oyuncaq evlərinə aparırdılar.
Ölmüş itinin alnını sığallayan Əhməd
anasına deyirdi: – Ana, Boz yatıb oyada bilmirəm.
Hərə bir cür ağlayırdı.
Fəqət, kədərin müxtəlifliyi belə yeqnəsəkdi.
Bu gün ən gözəli də o idi ki,
Sevdiyi oğlanın qanlı əllərinə su tökən qız,
Bu qədər ölüm sözünün içində
Məhəbbət sözünü unutmamışdı.

## Nə yaxşı ki, getmisən

Sən gedəndən nə dəyişib ki?
Yenə günəş Şərqdə çimir, qərbdə boğulur...
Yenə fəhlə dostum tez-tez əllərini yaralayır.
Sən gedəndən nə dəyişib ki?
Yenə yayda bənizim qara, qışda qismən ağ olur.
Yenə dostlar tost deyir, şüşələr boşalır.
Əvvələr də beləydi...
... sən gedəndən nə dəyişib ki?
Bircə, işıq pulumuz bir az çox olur.
Sən oynayan toylara baxıram,
Lentdəki səsinə qulaq asıram.
Sən gedəndən daha telefon borcumuz da olmur.
Sən gedəndən süfrəm də bollaşıb,
Dostlar da pullaşıb.
Tez-tez səni unutmaqla məşğul oluram,
Yeyə-yeyə, içə-içə.
Qızlar da azalıb sən gedəndən,
Sənə oxşayanları seçə-seçə.
Sən gedəndən siyasətlə məşğulam,
İnsanların yerlərini dəyişirəm ürəyimdə.
Sən gedəndən nə dəyişib ki?
Hər şey öz yerindədi,
Mən də, ölüm də.

**Məndən qəhrəman olmaz**

Bəlkə də, insanlar ağlamırlar.
İnsanlar ağlayanda axtarırlar:
Özlərini, itirdiklərini
Göz yaşının küçələrində.
Dostlar tost deyəndə Allahı çağırırdılar:
“Allah canımızı sağ eləsin”...
Arağın haramı ilə Allahın halallarının
təzadını gördüm süfrəmdə.

Arzuların saxtalığını anladım.
İçəndə daha çox yadıma düşürsən,
Sevəndə və sərxoş olanda ağlımız başımızda olmur.
Xəstə dostuma xəstəliyinin adını deyə bilməyəndə,
Anladım ki, yumruğum  qəzəbimin ifadəsi deyil.
Məndən qəhrəman olmaz...
Avtomobil yollarından,
Qatar relslərindən,
Havadakı təyyarələrdən
Umacağım yox.
Heç biri məni məndən apara bilməz,
Nə də səndən.
İlk sevdiyim,
İlk şeirim.
Ümumən, həyatımdakı ilklər daim maraqlı.
Sonları düşünmək də istəmirəm.
Məndən qəhrəman olmaz...
Ayağım ağrısını unutmur,
Ürəyim səni.
Hərdən evlənmək haqqında düşünürəm,
Evlənmək "ev" olmaqdı,
Evlənmək həyatı birləşdirir deyirlər.
Əslində, evlənmək ömrü parçalayır:
Qadına, uşağa, evə və s...
Sevginin vahidliyi belə yoxmuş...
Tüpürcəyini udanlar cəsarətsiz adamlardır.
Tüpürmək iyrənməkdən qurtulmaqdır.
Həyatda iyrəndiklərimə tüpürə bilmədim bəzən.
Məndən qəhrəma olmaz.

## Bütöv sevirəm

Əllərin nə gözəldi.
Kipriklərin də, gözlərin də.

Sən gedəndə əvvəl kipriklərin qapanır,
Gözlərin çəkilir gözlərimdən,
Sonra əllərin uçur əllərimdən.
Sonda ayaqların uzaqlaşır yanımdan.
Mən səni bütöv sevirəm,
niyə hissə-hissə qopursan məndən?!

## Yuxu kimi

*Könül üçün*

Ətəklər dağların hündürlüyünü öyrədir bizə,
Divarlar həm də, yanlarında yerimək üçündür,
Fəqət biz hərdən, o divarları aşırıq.
Asılqan paltarları xatırladır mənə,
Nəsə daim nədənsə asılıdır.
Məsələn: insan insandan, paltar asılqandan.

Hər gün yanan alışqanlar yandırılan siqaretlərdən daha çoxdu.
Bəzən həyat uzlaşmır, hətta özüylə belə.
Şərab şüşəsi şərabı bizdən daha əvvəl içib,
Amma o bizim qədər sərxoş deyil nədənsə...
Dünya sənin əllərin qədər kiçik deyilsə də,
Əllərindən gözəl də deyil.

Uzaq adalarda bir içim su olmusanmı?
Ya, mələk kimi günəşə sərmisənmi qanadlarını?
Yaxud da, mənim tək incimisənmi özündən?
Şeir, qadın, yuxu – üçü də gözəldi bilirəm.
Amma üçü də bir-birini tamamlamır...
Bax, mən elə bundan narazıyam...

Hər gecə yuxunu bir qədər aldadıram, yubadıram...
Hər gecə ətrimizlə alver edir hava...

Kiminsə ətrini kiməsə aparır...
Hər gecə nələr olur, bilirəm ki, bilmirsən.
Atılan silahlar, qaçan adamlar, gizlədilən qorxular...
Sən yuxu kimi şirin yaşa, şirin ol!
Bilməmək bilməkdən daha yaxşıdı bəzən...

Adamlar ağaclar qədər səmimi deyil,
Ağaclar dərdlərini yarpaq şəkilində tökürlər...
İnsanlarsa ürəklərində gizlədirlər...
Bir içim su, bir gecəlik yuxu
Bəs edər səni ömürlük xatırlamağa.
Unutmaq insanı xilas eləmir,
Sadəcə bir-birlərinə qarşı biganələşdirir...

## Ehtimal Nəzəriyyəsi

Səhər bir oğlan doğulacaq, adı Vüsal.
Səhər bir qız doğulacaq, Hicran adında.
Bir gün Hicran Vüsalı sevəcək,
Vüsal da Hicranı.
Bir gün Vüsal hicrana qatlaşacaq,
Hicran çatmayacaq vüsala.
Bir gün Hicranın Ümid adında bir "oğlu" doğulacaq
sevmədiyi ərindən.
Ümid də çox yaşmayacaq,
daha Hicran gözləməyəcək Vüsalı.

## Bir anda...

Yağış altında çinar,
Çinar altında adam,
Adam altında ayaq,
Ayaq altında addım,

Addım altında qarışqa
Hərdən "öldüm" deməyə vaxt tapmır.
Göyün əlində şəkil – günəş və ay.
Günəşin, ayın güzgüsü – dəniz.
Dənizin içində balıq,
Balığın içində kürü
Hərdən tavada "yandım" deməyə vaxt tapmır.
Insanın içində ürək,
Ürəyin içində sevgi,
Sevginin içində sevdiyin.
İnsan hərdən "sevirəm" deməyə vaxt tapmır – Ölür.
Əslində, sevmək də, ölmək də
zamansızlığın içində gizlənir.
Saat, dəqiqə və saniyə şərti zaman ölçüləridir.
Sevmək də, ölmək də bir anda olur,
Bir anda...

**Kitablar aldatdı bizi, Nazim baba**

*"Sonu yaxşılıqla bitən kitablar göndərin mana"*

***Nazim Hikmət***

Yox, Nazim baba, olmadı...
Gəncəm, fəqət inanmıram Nazim baba,
Sonu yaxşılıqla bitən kitablara,
Sonu nikbinliklə bitən nağıllara.
Ömrün çoxu zülümsə,
İnsanın sonu ölümsə,
Yaxşılıqla bitə bilməz heç nə.
Kitablar aldatdı bizi Nazim baba.
Qızların ağ atlı oğlanları gəlmədi,
Ömrümüzü yandırdıq simurq quşu gəlmədi.
İnsanlar haqqında iki yüzdən çox elm oldu,
Amma insanları tanıya bilmədik.
Çox ağların altından qara çıxdı, çox...
Səndən sonra da yoxdu

Sonu yaxşılıqla bitən kitablar.
“güllələnən partizan xilas olmadı,
Həkim gülərək çıxmadı əməliyyatdan
Qanadları qırılan təyyarə sağ-salamat enmədi yerə”.
Hər birinin öz ölümü oldu Nazim baba.
Sonu yaxşılıqla bitən kitablar nağıllardı,
Nağıllarsa uydurmadı.
Sənə çatmadı sonu yaxşılıqla bitən kitablar,
Bizə də.
İnşallah bizdən sonrakılara çatar...

**Unutmamışam**

Unutmamışam,
Heç nəyi unutmamışam.
Küçəniz şeirlərini satan şairin adını daşıyır.
Qapınızın nömrəsi  Gəncə maşınlarının nömrəsidi.
Eyvanınızı rahat görmək olur küçədən,
Hasarınız alçaqdı.
Yadında varsa, müəllimə olmaq istəyirdin,
Mən də polis.
İndi sən anasan
Mənsə, eh!...
Məndən yaxşısını axtarırdın,
İndi gör kimə qismətsən.
Arzularımız yuxu kimi tərsinə oldu,
Tərsinə...
İndi eşitdiyimə görə uşaq arzulayırsan,
Ana olmaq istəyirsən.
Mənsə, beşik düzəldib satıram.
Bir gün, nə vaxtsa gələcəksən yanıma...

**Utancaq**

Mən ona baxıram,
O şəhərə.
O mənə baxır,
Mən yerə.

**Poema deyil**

*"Yarımçıq şeirlər" silsiləsindən*

1

Mən özümdə olmadım,
Sevgi sərxoşluğundan,
Sən də növbəti "yox"san,
Ölmərəm yoxluğundan.

2

Mən heç vaxtı bu qədər
Oyunbaz bilməzdim səni,
məni udanlar hamısı
Sənə uduzdular məni

3

Demək ki, sən busanmış,
mələk kimi görünən.
Sən öz ərinə gəlinsən,
mən öz dərdimə gəlinəm

4

Dünya yaranan gündən
Günəş küsüb gecəylə.
Eşq ya qalib, ya məğlub
Qurtarmır heç-heçəylə.

5

O iki canlı qadının
qarını ən gözəl beşikdi,
Hamı öz qəbrinə düşür,
deyəsən, dünya deşikdi.

6

Bəyənirəm, bəyənirəm,
ümid gözəl təsəllidi,
Doğulanda ölən uşaq,
ən çox yaşayan ölüdü.

7

Gəlmişik bu dünyaya
Biz kimi yoxlamağa?
Bəlkə hamımız gəlmişik
İsa çarmıxlamağa?

8

Məhəbbət cavanlara
Bir sərçə tələsidir,
Bəyənməksə hamını
tələyə tələsidir.

9

Ölüm qoxuyan sevgilim
Yaxın gəl iyini alım,
Zəif görsəm xəyalını
Eynək tək gözümə sallam.

11

Günahın odunuyla
Qaynayır qır qazanı.
Günah edən bəndələr
qazanır o qazanı.

12

Yağış yağır, qar yağır,
İşləkdi bulud hamamı
Vicdanımızın ağzında
Getmir günahların tamı.

13

Ah, bu gözlərim  üzümdə
bir qoşa güllə yeridir.
Gündüz sığallayan əlim,
Axşamlar güllə yeridir.

14

Bu  yaşa kimi, dostum,
Neçə il ömür gəldim.
Ömür üçün uzandım.
Ölüm üçün güdəldim.

15

Sən bir yol fırlanıb getdim.
İşıqlı lampa başına.
Mən beş ildir fırlanıram
Gözlərimin yaşına.

16

Eşqdən yandım, sönmədim,
üstümə su səpdilər.
Mən öldüm yoxluğumu,

Gözlərinə təpdilər.

17

Qapıları açmadılar,
Bu bəxtin bacası hanı?!
Dərd verdiyin oğlan mənəm,
Allah, tanı, aç qapını...

18

Nələr nələrdən keçdi,
Ay naməlum, bilirsən?
Dərddə batırdın məni,
Özün harda üzürsən?

19

Bu küçə addım-addım
İtib-batır, ay Allah.
Bəxtim də yatmaq üçün,
Dərman atır, ay Allah.

20

Gözüm yol yolçusudur,
Gözüm yenə yollardadı.
Niyə qaçıb gələmmirsən,
Sən dardasan, yol dardadı?

21

Sərxoş külək nə içib ki,
Bax, bu qədər kefli qalıb?

Dərd başımdan basmaq üçün,
Hündürdaban dufli alıb.

22

Ömrü saxlaya bilmədin,
Ömrün sürüşdü, dostum.
Ölüm hamının gördüyü
Sonuncu işdi, dostum.

23

Gəl səninlə razılaşaq,
Olmadı... olmadı.
Allaha can uzatdım,
Almadı...  almadı.

24

İtib o verdiklərin,
Harda düşüb bilmirəm.
Darıxmışam ölümdən,
Neçə vaxtı ölmürəm.

25

Pəncərəsinə baxdığım
O qız gedib haçandı.
Gözlərim, o pəncərədə
Çörək güdən siçandı.

26

İslanmışıq dərd ilə,

Çətirimiz də, deşikdi.
Bu xaraba səninlə
Əməlli ev-eşikdi.

27

İşə girmişəm dostlar,
“Hicran idarəsi”ndə.
Mən fəhləyəm, o qızsa,
Müdir vəzifəsində.

28

Dünya düşməyib yerinə,
Ona görə tərpənir.
Adam sudan ibarətdi.
Göz yaşda, can tərdədir

29

Gözümdəki yaşmısan?
Bağrımdakı daşmısan?
Ürəyimi aşmısan
Alpinist məhəbbətim.

30

Əllərimi saçına tax,
Qoy saçın dağılmasın,
Ehtiyatsız adamam mən.
Ömrümə dağılmısan.

31

Sən indi rahatsan yəqin,
Mən necəyəm, bəs, indi?
Sən yoxsan sənsizlik var.
Şükür, bu da bəsimdi.

32

Gülmədi bizə heç kəs,
Bizə heç kəs ağlamadı.
Aparmadı gələnlər,
Qalanlar saxlamadı.

33

Yanmadı işığımız,
Bu bəxt, bu da qaranlıq.
Hamı gündən qaraldı,
Biz zülmətdən qaraldıq.

34

Xoşbəxtlik dünyanın it ilindədi,
Adamlar görəsən nə gəzir burda?
Sevinclər hamısı əsgərə dönüb,
Kədərlər hamısı gizirdi burda.

35

Öyrənib adını tapdım axır ki,
Kimsəsiz fahişə duşusan, yağış,
Səndə bezib bulud adlı yurdundan,
Yer adlı qürbətə qaçmısan, yağış.

36

Hərə gedib öz qınına çəkilib
Kimim var ki, kimə baxıb sevinəm.
Ölüm bu gün heç nə olan dünyada.
Anam ağlamasın deyə ölmürəm.

37

Alçaldıqca içimdəki adamlar.
O şəxslərin inam evi alçalır.
Pərdə enir, biz gedirik səhnədən.
Ölüm həyatın sonunda əl çalır

38

Arxda axır, ağzıgöyçək ləpələr.
Suda sınır sarmaşığın kölgəsi.
Kölgəm daha ayağıma dolaşmır.
Nə gözəldir hür yaşamaq kölgəsiz.

39

Zəhərimi şirin içim, dayan, dur.
Qatma araq, qatma araq, çaxırıma
Qazancıma verməmisən, İlahi,
Heç olmasa bərəkət ver ağlıma.

40

Heç nə demə daha özüm bilirəm.
Bu dünyanın hər üzünə gülürəm.
Bir gün mənim ayağımın altında
Ölüm gəlib deyəcək ki, ölürəm.

## DÜNYANIN ƏN ƏCAiB TƏZADI

Düşüb əlimdən sındı,
Eyib göstərən güzgü,
“Eybi yoxdur” – dedilər.

***

Qatil dedilər mənə,
Bir-iki “Ümid” öldürmüşdüm.
Bir-iki arzu doğuldu ürəyində,
Sənə “Ana” demədilər.

***

Dilimi dişlədim,
Bir-iki sözüm kəsildi.

***

Ağ bənizli qızın qara bəxti,
Dünyanın ən əcaib təzadı.

***

Sən Günəşsən, mən Ayam,

Çoxdandır görüşmürük.
Neyləyək, düzgün bölünməyib
Məhəbbətin iş saatları.

***

Arxamca su atan qız,
Ayağımın izlərini yuyur
Ömrünün cığırlarından.

***

Bir, iki, üç deyib qaçmaq istəyirəm dünyadan,
Amma iyirmi ildir arxamca gəlir ömür.

***

Dünən bir ulduz axdı,
Sən də öldün mənimçün.

***

Avtobusda yatan fəhlənin
yuxusunun adı – YORĞUNLUQ.

***

Bayquş balaları bizə əvvəlcədən deyir,
Amma biz onu sevmirik.

***

Mənim yol verdiklərim
məndən çıxıb getdilər.
Yerini bilmədiyim yerə!

***

Əllərimin evi – cibim.
Sevgimin cibi – ürəyim.

***

Daha mən danışmıram,
Qoy, gözlərin “ürəy”ini boşaltsın.

***

Bir saat əvvəl əzizlənən uşaq,
Bir saat sonra döyüləndə
Anladı ki, sevgi müvəqqətidi.

***

Sənin otağında ayna olaydım,
Hər səhər üzümə baxıb gedəydin.

***

Xanım sözündə XAN var,
Bəy sözündə ancaq BƏY var.
Deməli, xanımlar adlarında da,
Kişi daşıyırlar.

***

Səhvimi bağışlayasan deyə,
Mesaj yazdım.
Mesajdasa adını kiçik hariflə,
Səhv etməyə öyrənmişəm. Bağışla...

***

Kağızdan gəmi düzəldəndə bilirdim,
uzaqlara getməyəcəyəm.
Amma kağızdan gül düzəldəndə bilmirdim,
sevgimiz oyuncaq olacaq...

***

Pişik öz ayaqlarını elə yalayır ki,
sanki atasının əllərindən, ayaqlarından öpür,

onu sevmədiyi oğlana yar eləməsin deyə...

***

Yayda qar arzulamaqdı səni sevmək,
Elə mən də, qar arzulayıram.

***

Yazdığım məktublar heç bilmirsən hardadı.
Eybi yox, incimirəm,
sözlərim yadımdadı!

***

Başını o gecə çiynimə qoydun,
Duydum məhəbbətin ağırlığını.

***

Mənim gözlərimdə çox uçurum var,
Mənim gözlərimdən çox insan düşüb.

***

Dünyanın mübarizəsiz qəhrəmanları – ağaclar,
Sizi doğulduğunuz gündən torpağa gömürlər...

***

Əgər bu şəhərdə
Sevdiyin qızın yaşadığı evin yerini bilmirsənsə,
Bütün pəncərələrindən sual yağacaq gözlərinə,
“Görəsən o haradadır?”.

***

İşıqlar mərtəbə-mərtəbə dırmanır binaya,
Hər mərtəbə işığın bir pilləkənidi...

***

Avtomobil qəzasında ölmüş bir cavan oğlanın qəbri,
Qəbiristanlığın yanından sürətli keçən
Avtomobillərdən nigarandı.

***

Üstündə səməni çürüyən qəbir,
Novruz bayramın mübarək olsun.

***

Dünyanın ən sözəbaxan uşaqları,
Balaca qızların kuklalarıdır.
Kuklalarsa o qızların analıq arzusudur.

***

Alnımızda qırış,
Əlimizdə çat.
Alnımızda güllə,
Əlimizdə avtomat.

***

Sən üstümə su töküb sevinirsən ki,
onu islatdım.
Mənsə fikirləşirəm ki,
Bəlkə, yuyuldu günahlarım.

***

Hamıya qartopunu yavaş atırsan,
Mənə çatandasa,
elə bil şeytana daş atırsan.

***

Gözümün ürək sözlərin
Gətir, yazım baxışına.

***

Yaxşı qadın ərini,
Axşam çəkdiyi siqaretlərin sayından tanıyır.

***

Həyatın tərkibində məhbusluq  qaçılmazdı.
Öləndə belə olsa həbs eləyəcəklər bizi,
Bir otaqlı, pəncərəsiz qəbirə.

***

Heç nəyin naminə
çox şeyi itirəndə anlamalıydım ki,
həyat bizi uduzdurmaq üçün,
talehlə əlbir olub.

***

Bir gün sənin getməyini deyəndə mənə,
Bir də baxdım ki,
içimdəki bütün qapı-pəncərələr acıq qalıbmış.

***

Təki, həmişə rahat olasan,
Unudulmayacağını bilib rahatlaşmısan indi,
Sənin məni xatırlamayacağının ağrısı
Səndən də gözəldi.

***

Mənə bir dənə nişan şokoladı göndər.
Zəhərə veriləsi pulum yoxdur.

***

Dəlilər ağıllıların dərdini çəkir.
Niyə bu bədbəxtlər bu qədər fikirləşirlər görəsən?

***

Şam ağacları əbədi fərəqətdədirlər.
Zamandan "azad" sözü gözləyirlər.

***

İnsan həm də addımlarının
Sayı qədər yaşayır.

***

Utanıb ağlamamaq dərdi var.
Bilirsinizmi?

***

Mən olanlara bir ad verəcəm - Eyş-işrət.
Sənsə başqa ada verəcəksən –Xəyanət.

***

İlk dəfə yıxılanda anlamalıydım ki,
ayağım özümə badalaqdı

***

Dərdlərin hər biri Herakl gücündə,
Bizimsə, sümüyümüz də bərkiməyib hələ.

***

Dırnaq işarələrində olmalıydı şeirlərim,
Çünki onlar ürəyimin sözləridi, ürəyimin.

***

Bir ömür ürək döyür sinəmizin qapısını açmırıq.
Budur əsl insan qəddarlığı.

***

Toxunma, ay qız, toxunma,

Sinəmdəki yumruğuma.

***

Dünya dördbucaqlı deyil,
Amma həmişə dirənirik divara,

***

Ah bilirəm atamın ölümü
Həmişə oğlumdan yaşca böyük olacaq

***

Kişilərçün qadın
Uzananda şirin olur, ayaq üstə acı.

***

Sevgi su tapmayanın dodaq quruluğudu,
Mənim sənə olan hissim –su bolhabolluğudu.

***

Sən isti şəhərdə gecələr üstündən atdığın yorğanı,
Mən soyuq şəhərdə xəyalən üstümə örtəndə bildim,
nə qədər uzaqsan mənə.

***

Böyüklüyünə şükür, Tanrı,
Şeytanı da mələk yaratmısanmış.

***

Saçlarına rəng qoy deyirik, ana
Bu səni çox istədiyimizdən deyil.
Biz öz günahlarımızı ört-basdır etmək istəyirik.

***

Ürəyim torpaq yeridir.

Hərə öz ayağının gücünə görə qazır.

**Zəruri qeyd:** “Dünyanın ən əcaib təzadı” adlandırdığım bu silsilə şeirlər (fikirlər) daim yazılır və təzələnir. Yəni mən nə qədər varamsa, nə qədər olacağamsa bu silsilə bitməyəcək. Bu şeir mənim ömrümə işarədir.

## ESSE DÜŞÜNCƏ ƏXLAQI KİMİ

(son söz əvəzi)

Hələ Fəridin ilk şeirlərini, esselərini oxuyanda anladım ki, o düşünməyi çox sevir. Hər şeydə məna axtarır. Onun fəlsəfi refleksiyası təzad məntiqinə tabedir.

Çox sevinirəm ki, Fərid ümumilikdə Azərbaycan şairlərinə xas olan ucuz sentimentallıqdan, psevdopoetik emosiyalardan uzaqdır. Fəlsəfi mühakimə və təhlil emosiyası onun həyata, insanlara, kitablara fərqli gözlə baxmağına imkan verir. Bu həm də onun başqasını eşitmə və görmə imkanıdır. Başqa düşüncəni oxumaq hünəridir. Kiməsə ürəyini boşaltmaq, fikrini paylaşmaq bacarığıdır. Bu məqamda maraqlı bir hekayə sujeti yadıma düşür: Ətrafda hamı qaçır, insanlar harasa tələsir. Bir qoca arabaçının oğlu ölür. Yazıq bu ağır dərdə dözə bilmir və qarşısına çıxan hər kəsə dərdini danışmaq istəyir. Ancaq yazıq həmdərdi hardan tapsın? Onda Çexov qəhrəmanı (bu hekayəni xatırlayırsınızmı?) ürəyindəki sözləri ata danışır. Yalnız at saatlarla insan etiraflarını, könül izahatını dinləməyə hazırdır. Bu hekayəni ona görə xatırladım ki, texniki inkişafın, virtual mədəniyyətin insanları bir-birindən təcrid etdiyi bir dönəmdə, hər kəs onu dinləməyə qadir olan bir həmsöhbət axtarır. Gənc bir yazarın dialoqlara metafizik yanaşması onun düşüncə genişliyindən xəbər verir. Fərid dialoqu fərqli qavramlarda şərh edir.

Fəriddə düşünmək özü də ədəb-ərkandır. Onun davranışı, yaşam tərzi, yazısı-pozusu, düşünmə əxlaqı ilə bağlıdır. Fəridi yaşıdlarından fərqləndirən cəhət də budur.

Fərid bu kitabını görkəmli yazıçımız və alimimiz Kamal Abdullanın «300 azərbaycanlı» adlı esselər kitabının davamı kimi qələmə alıb. Kamal Abdullanın gənc və istedadlı yazara təsiri də təbiidir…

Fərid özünəməxsus düşüncə ehtirasına, məna məntiqinə malik esseistdir. O sanki hər bir obraz, situasiya, detal üzərində «zikr eyləyir». Esselərinin və bir çox şeirlərinin mediativ intonasiyası da bu üzdəndir. Esselər fraqment kimi yazılsa da, bir düşüncə – söyləm süjeti kimi söylənilir, təqdim olunur. Esselərdə bir monoloq bütövlüyü var. Hətta film situasiyaları ilə bağlı misal gətirdiyi dialoqlar da, monoloq bütövlüyünün tərkib elementləri kimi çıxış edir («Təktərəkli dialoqlar»).

Dəyərli oxucular bu esselərin, poetik təhlillərin, ritorik sualların arxasında Fəridin düşüncə əxlaqını və istedadını asanlıqla görə bilər.

Bu esselər ayrıca intim auraya malikdir. Həmin bu mətnlərdə Fəridin iç dünyası, düşüncəsinin «qırışları» aydın görünür.

Bu esselərdə müəllif qənaətləri, ümumiləşdirmələr gözlənilməz və ən başlıcası səmimidir. Bir-birini əvəz edən, kaleydoskop kimi dəyişən fraqmentlər – esselər Fəridin kifayət qədər yetkin dünyagörüşündən, fəlsəfi mühakimə qabiliyyətindən, mütaliəsindən xəbər verir. O, fəlsəfi fikirlərini oxuduğu əsərlər kontekstində, sevdiyi yazıçılar və filosoflarla dialoq şəklində ("Necəsən Nitsşe") qurur.

Fərid Hüseynin yazılarında bir metafora damarı var. Esseist gərək metonimiyadan metafora düzəldə bilsin… O bunu bacarır.

O, esselərində təhkiyə intonasiyasını qoruyub-saxlaya bilir. Kulturoloji xarakterli mətnlərdə şəxsi yaşantılarını metafizika ilə birləşdirə bilir. İntonasiya səmimiliyi bütövlükdə esselərin səmimiliyini mümkün edir. Fərid üçün esse yozum imkanıdır. Məsələn: Adəm və Həvvanın cənnətdən qovulmasının sözə xəyanət kimi yozması mənə maraqlı göründü ("Həvvan almaya görə qovmayıb").

Fəridin elə şeirləri var ki, esse effektinə, esse magiyasına malikdir. Onun yerində olsaydım, həmin şeirləri esselərlə birgə nəşr edərdim. İstedadlı şair, esseist Fərid Hüseyn yaxşı bilir ki, esseistika ciddi adamların işidir. Qoy fikrini zəhmi onu qorxutmasın. Mən sevimli tələbəmə inanıram...

**Rüstəm Kamal**
**ədəbiyyatşünas alim**